RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 16 (8895) ÇƏRŞƏNBƏ AXŞAMI, 25 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Cənubi Qafqazın güc və beyin mərkəzi

## İlham Əliyev diplomatiyası Azərbaycanı qlobal müzakirələrin aparıldığı beynəlxalq platforma və unikal məkana çevirib

Müstəqilliyinin bərpasından ötən 30 ildə əldə etdiyi nailiyyətlərlə Cənubi Qafqazın lider dövləti statusuna sahiblənən Azərbaycan bu gün həm də sivilizasiyalar arasında mənəvi körpü rolunu oynayır. Demokratik inkişaf yolunu seçmiş Azərbaycanın səsi dünyanın ən mötəbər kürsülərindən eşidilir.

Prezident İlham Əliyevin hadisə və proseslərə prinsipial və qətiyyətli yanaşma tərzinə, ardıcıl və sistemli qərar qəbuletmə məharətinə, sarsılmaz iradəsinə heç bir kənar qüvvə təsir edə bilmir. İlham Əliyevin həyata keçirdiyi uğurlu diplomatik gedişlər nəticəsində Azərbaycan tam müstəqil xarici siyasət yürüdən dövlət kimi tanınır. Ölkəmiz öz milli maraqlarına xidmət edən bərabərhüquqlu və qarşılıqlı əməkdaşlıq əsasında xoşniyyətli tərəfdaşlar üçün unikal məkana çevrilib. Bu siyasətin təntənəsi Azərbaycanın ictimai-siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində də öz təsdiqini tapıb. Bu həqiqət hər il Azərbaycanda keçirilən beynəlxalq konfranslarda, forumlarda da özünü bir daha büruzə verir.

### "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq"

Hər il olduğu kimi, 2021-ci ildə də ölkəmiz bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etdi və bu tədbirlər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə əhəmiyyətli töhfələr verdi.

Ancaq öncə qeyd etməliyik ki, dünyanı çənginə alan koronavirus bəlası hələ də davam etdiyi üçün bir çox toplantılar təxirə düşüb və ya videoformatda keçirilib. Ancaq qlobal böhrana qarşı qabaqlayıcı tədbirlər görən əksər ölkələrdə müxtəlif tədbirlərin keçirilməsi təxirə düşməyib. Azərbaycanda da əvvəlcədən planlaşdırılan bir neçə beynəlxalq toplantı baş tutub.

Ötən il aprelin 13-də Bakıda "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans keçirildi. Konfransdan bir gün öncə iştirakçılar erməni vandalizminin əyani təzahürü olan Ağdam şəhərinə səfər etdilər və Ermənistanın 30 illik işğalının dəhşətli nəticələrinin şahidi oldular.

Bir gün sonra isə ADA Universitetində keçirilən konfransda Prezident İlham Əliyev həm erməni vandalizmi, həm də regionun gələcəyi ilə bağlı fikirlərini iştirakçılarla bölüşüb, bu məsələyə baxışlarını paylaşıb.

Vətən müharibəsindəki şanlı Zəfərdən sonra yaranan yeni reallıqlardan danışan Prezident öncə bəyan edib ki, bu savaşla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqları işğaldan azad edilib və ölkəmizin ərazi bütövlüyü bərpa olunub.

Bu gün artıq müharibə başa çatıb və gələcəyə baxmaq, yeni reallıqlara uyğun addımlar atmaq lazımdır. İndi Cənubi Qafqaz üçün inkişaf və əməkdaşlığa hesablanmış yeni baxış formalaşmalıdır ki, Qarabağ dünyanın ən gözəl bölgələrindən birinə çevrilsin.

Ardı 4-cü səh.

---

## "Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında ümumvətəndaş pasportlarına malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında ümumvətəndaş pasportlarına malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" 2021-ci il oktyabrın 18-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

---

## "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 2021-ci il noyabrın 15-də Ər-Riyad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

---

## "Azərbaycan Respublikası və Dünya Bankı Qrupu Təşkilatları arasında Azərbaycan Respublikasında Ofislərin Qurulmasına və Fəaliyyətinə dair" Sazişin təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası və Dünya Bankı Qrupu Təşkilatları arasında Azərbaycan Respublikasında Ofislərin Qurulmasına və Fəaliyyətinə dair" 2021-ci il noyabrın 18-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

---

## F.H.Səttarovanın "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin**

**SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fatma Hüseyn qızı Səttarova "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2022-ci il*

---



## «Omikron»dan sonra da yeni mutasiyalar yarana bilər

*Yeni ştamların daha yoluxucu ola biləcəyi də iddia edilir*

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bütün ölkələri "Omikron"dan sonra da COVID-19-un yeni mutasiyalarının yarana biləcəyindən xəbərdar edib.

"Omikron"un hələ də təhlükəli olduğunu nəzərə çatdıran ÜST eksperti Mariya van Kerxove bu ştamın zəif hesab edilməsini düzgün saymayıb.

Ardı 7-ci səh.

---

## 2021-ci ildə Azərbaycanda 34,6 milyon ton neft hasil olunub

### Bu, ondan əvvəlki ilə nisbətən çoxdur

2021-ci ildə Azərbaycanda 34,6 milyon ton xam neft hasil edilib. Neft hasilatında ondan əvvəlki ilə nisbətən artımın olması, əsasən, "OPEC+" razılaşması çərçivəsində könüllü məhdudlaşdırmaların tədricən aradan qaldırılması ilə bağlıdır.

Ümumiyyətlə, keçən il ölkə üzrə neft və qaz hasilatında artım tendensiyası davam etdirilib. Artım xüsusilə qaz hasilatında müşahidə olunub. Belə ki, 2020-ci illə müqayisədə qaz hasilatı 18,1 faiz artıb və 43,9 milyard kubmetr təşkil edib.

Ardı 5-ci səh.



---

**◆ Dünya gündəmi**

## Danışıqlar irəliləyiş olmadan başa çatıb

### ABŞ yanvarın 30-dək Moskvanın təkliflərinə yazılı cavab verməlidir

İsveçrənin Cenevrə şəhərində Rusiyanın xarici işlər naziri Sergey Lavrovla ABŞ-ın dövlət katibi Entoni Blinken arasında Moskvanın təhlükəsizlik təklifləri ilə bağlı danışıqlar başa çatıb.

Son həftələr ərzində Ukrayna ilə bağlı bir sıra beynəlxalq görüşlər keçirilib, lakin onlar gərginliyin əhəmiyyətli dərəcədə azalmasına nail olmağa imkan verməyib. Rusiya Ukrayna sərhədi yaxınlığına, təxminən, 100 min hərbçi cəmləşdirib və NATO-dan Ukraynanın bu quruma daxil olmayacağına dair hüquqi təminat tələb edib.

Qərb ölkələri bu tələbləri qəbuledilməz adlandırır, NATO-nun qapılarının yeni üzvlərin qəbulu üçün açıq qalacağını vurğulayıblar. İşğal baş verəcəyi təqdirdə ABŞ Rusiya iqtisadiyyatı üçün fəlakətli sanksiyalar vəd edib. Bu barədə Blinken Lavrovla görüş ərəfəsində keçirilən Kiyev və Berlin səfərlərində də danışıb. Dövlət katibi Ukrayna və Almaniya siyasətçiləri ilə yanaşı, həm də Fransa və Böyük Britaniyanın diplomatları ilə də görüşüb.

Ardı 7-ci səh.

## Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsi veteranı Fatma Səttarovaya

Hörmətli Fatma xanım!

Əlamətdar yubileyiniz - anadan olmağınızın 100 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz şərəfli ömür yolu keçərək bütün həyat və fəaliyyətinizi doğma Vətəninizə xidmətə həsr etmiş, İkinci Dünya müharibəsi illərində yenilməz iradə və qətiyyət nümayiş etdirmisiniz.

Cəbhəyə könüllü yollanaraq Leninqrad şəhərinin mühasirəsi zamanı və Moskva ətrafında gedən döyüşlərdə fəal iştirakınız fədakarlıq və şücaətin bariz nümunəsi idi. Xalqımızın məhz Sizin kimi yüz minlərlə mərd övladlarının cəsarəti, igidliyi, əzmkarlığı sayəsində Azərbaycanın adı faşizmə qarşı mübarizənin ön cərgəsində yer almış dövlətlər sırasındadır.

Sonrakı dövrlərdə Siz ölkəmizin ictimai həyatında yaxından iştirak etmiş, gənclərin vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə, layiqli vətəndaşlar kimi yetişməsinə töhfə vermisiniz. 44 günlük Vətən müharibəsi zamanı təmsil etdiyiniz Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı dövlətimizin, ordumuzun yanında olmuş, qazilərimizə, şəhid ailələrimizə mənəvi dəstək vermiş, diqqət və qayğı göstərmişdir.

Hörmətli Fatma xanım!

Sizin həyat və mübarizə yolunuz Vətənə, xalqa sədaqət və ləyaqətlə xidmət nümunəsi, gənclərə və gələcək nəsillərə örnəkdir.

Belə bir xoş gündə Sizə bir daha ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2022-ci il*

## Səməd Seyidov AŞPA-nın Monitorinq Komitəsinin birinci vitse-prezidenti seçilib

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, ölkəmizin Avropa Şurası Parlament Assambleyası yanında nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AŞPA-nın Monitorinq Komitəsinin birinci vitse-prezidenti seçilib.



AZƏRTAC xəbər verir ki, Monitorinq komitəsinin vi4tse-prezidenti seçkiləri qurumun yanvarın 25-də Strasburqda hibrid formatda işə başlayan qış sessiyası çərçivəsində keçirilib.

## Azərbaycan və İran nümayəndə heyətləri işğaldan azad edilmiş ərazilərə birgə səfər ediblər

İranın yol və şəhərsalma naziri, İran-Azərbaycan Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qaseminin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, İran nümayəndə heyəti Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin başçılıq etdiyi nümayəndə heyəti ilə birlikdə işğaldan azad edilmiş ərazilərə səfər edib. Onlar Prezident İlham Əliyevin tapşırıqları əsasında həmin ərazilərdə həyata keçirilən nəqliyyat və digər infrastruktur layihələri ilə tanış olublar.

İlk növbədə qonaqlara təyyarənin Tehrandan birbaşa reyslə endiyi Füzuli Beynəlxalq Hava Limanı barədə məlumat verilib, cəmi 9 ay ərzində inşa olunduğu diqqətə çatdırılıb.

Sonra nümayəndə heyətləri Azərbaycanın Ermənistanla həmsərhəd Zəngilan rayonunda beynəlxalq nəqliyyat marşrutunun bir hissəsi olan Horadiz-Ağbənd dəmir yolu layihəsi üzrə görülən işlərlə tanış olublar. Tanışlıq zamanı layihənin əhəmiyyəti haqqında danışılıb, İranın bu layihədə iştirakının vacibliyi vurğulanıb.

Qonaqlar həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa edilməkdə olan ikinci hava limanı - Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olublar.

Daha sonra Zəngəzur dəhlizində inşa olunan avtomobil tunellərinə və Cocuq Mərcanlı qəsəbəsində dəmir yolu layihəsinə baxış keçirilib, avtomobil və dəmir yolu layihələri ilə bağlı təqdimatlar dinlənilib.

İşğaldan azad edilmiş ərazilərə səfər boyu qonaqlara ermənilər tərəfindən dağıdılmış şəhər və kəndlər barədə məlumat verilib. Səfərin sonunda nümayəndə heyəti Füzuli şəhəri ilə tanış olaraq bütün yaşayış və infrastruktur obyektləri, o cümlədən məscidlərin tamamilə dağıdıldığının canlı şahidi olublar.

## Azərbaycanın müdafiə naziri Finlandiya Xarici İşlər Nazirliyinin nümayəndə heyəti ilə görüşüb



Yanvarın 24-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Finlandiya Xarici İşlər Nazirliyinin Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya Departamentinin baş direktoru xanım Marya Livalanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilən ərazilərdə görülən işlər, həmçinin Azərbaycan-Ermənistan dövlət sərhədindəki vəziyyətlə bağlı ətraflı məlumat verib.

Nazir Azərbaycan-Finlandiya hərbi əməkdaşlığının NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində uğurla həyata keçirildiyini bildirib. Xanım M.Livala Finlandiya ilə Azərbaycan arasında qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı ölkələrimiz arasındakı münasibətlər, regionda sülhün və sabitliyin gücləndirilməsi, eləcə də digər maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparılıb.

## Qanunvericilikdə gənclərlə bağlı məsələlərə baxılacaq

Yanvarın 24-də Milli Məclisin Gənclər və idman komitəsinin yaz sessiyasında onlayn formatda ilk iclası keçirilib. Onlayn iclasda Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev öncə yaz sessiyasının başlanması münasibəti ilə həmkarlarını təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Sonra vitse-spiker diqqətə çatdırıb ki, iclasın gündəliyinə 2021-ci ilin payız sessiyası dövründə Gənclər və idman komitəsində görülən işlər barədə hesabat və komitənin 2022-ci ilin yaz sessiyası üçün iş planı daxil edilib.



Adil Əliyev qeyd edib ki, 2020-ci il Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfərimizlə xarakterizə olunduğu kimi, 2021-ci il də Qarabağda aparılan böyük tikinti və yenidənqurma işləri daxil olmaqla, həm dövlətimiz, həm də xalqımız üçün olduqca mühüm hadisələrlə yadda qaldı.

Vitse-spiker 2021-ci ilin payız sessiyasında görülmüş işlər barədə məlumat verərək diqqətə çatdırıb ki, Gənclər və idman komitəsinin üzvləri ötən müddət ərzində səmərəli fəaliyyət göstərib, bu sahədə ölkədə həyata keçirilən islahatlarla bağlı üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. Bununla əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində də lazımi addımlar atılıb. Bu dövrdə komitənin 9 iclası keçirilib. Payız sessiyasında Gənclər və idman komitəsinə 751-i yazılı olmaqla, şifahi və sosial şəbəkələr üzərindən 1400-dən çox vətəndaşımız tərəfindən ünvanlanmış müraciətlərə baxılıb. Onların böyük əksəriyyəti müsbət həllini tapıb.

Adil Əliyev diqqətə çatdırıb ki, özü hesabat dövründə Vətən müharibəsi şəhidlərinin anım tədbirlərində, qazilərlə görüşlərdə iştirak etmək məqsədilə ölkə daxilində bir sıra rayonlarda səfərlərdə olub, şəhidlər xiyabanlarını, şəhid ailələrini və qaziləri ziyarət edib.

Bildirib ki, Milli Məclisdə pandemiya qaydalarına uyğun olaraq 53 görüş təşkil etməklə, 450-dən çox Vətən müharibəsi qazisi, həkimlər, habelə fəal gənclərlə görüşlər keçirilib. Görüş iştirakçılarına əldə etdikləri nailiyyətlərə görə müxtəlif mükafatlar, fəxri fərmanlar təqdim edilib. Eyni zamanda 20 saylı Nərimanov İkinci seçki dairəsində canlı və onlayn görüşlər keçirib, seçiciləri düşündürən məsələlər üzrə müvafiq tədbirlər görülüb. Qeyd edilib ki, komitə üzvləri şəhid və qazi ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşıblar. Bu qəbildən olan ailələrlə görüşlər keçirilib, onlara kömək göstərilib. Komitə üzvləri bir sıra xeyriyyə tədbirlərində də fəal iştirak ediblər, mətbuatda çıxışlar ediblər.

Adil Əliyev bildirib ki, hesabat dövründə komitə sədri və üzvləri ölkədaxili və beynəlxalq səviyyəli tədbirlərdə iştirak ediblər, təmsil olunduqları parlamentlərarası əlaqələr üzrə işçi qrupları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər keçiriblər, müzakirələr aparıblar, ictimaiyyəti maraqlandıran məsələlərlə bağlı fəal mövqe nümayiş etdiriblər.

İclasda komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planına da baxılıb. Bildirilib ki, Milli Məclisə daxil olacaq qanun layihələri, bir sıra qanunlarda dəyişiklik edilməsi ilə bağlı məsələlərlə yanaşı, komitədə "Reproduktiv sağlamlığın qorunması haqqında" qanun layihəsində, eləcə də "Ali təhsil haqqında" qanun layihəsində gənclərlə bağlı müddəaların müzakirəsi nəzərdə tutulub. Eyni zamanda iş planında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli Sərəncamına uyğun olaraq, gənclərin maarifləndirilməsi tədbirlərinin, komitə üzvlərinin mütəmadi olaraq seçki dairələrinə daxil olan ərazidə yaşayan şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə görüşlərinin, Xocalı soyqırımına həsr olunmuş tədbirlərin keçirilməsinə, ölkə əhəmiyyətli ictimai-siyasi hadisələrlə əlaqədar müxtəlif səpkili tədbirlərin təşkilinə də geniş yer ayrılıb.

Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, komitənin üzvləri Ramil Həsən, Sevinc Hüseynova, Müşfiq Cəfərov ölkəmizdə gənclər siyasəti istiqamətində atılan mühüm addımlardan, gənclərin sağlam, savadlı, vətənpərvər, milli ruhlu vətəndaşlar kimi yetişməsi üçün onlara yaradılmış şəraitdən söhbət açıblar və bir sıra təkliflər səsləndiriblər.

Müzakirələrin sonunda Gənclər və idman komitəsinin Milli Məclisin 2021-ci ilin payız sessiyası dövründə gördüyü işlərlə bağlı hesabatı məqbul sayılıb və komitənin 2022-ci ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

Onlayn iclasda komitə üzvləri Mahir Abbaszadə, Ülvi Quliyev, Etibar Əliyev, Cavid Osmanov, Könül Nurullayeva, Jalə Əhmədova, Vüqar İskəndərov, Şahin Seyidzadə və Cəbi Quliyev iştirak ediblər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "Müharibədən sonrakı reallıqlar və media" mövzusunda üçgünlük təlimlərə start verilib

Yanvarın 24-də Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Medianın İnkişafı Agentliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə təşkil etdikləri "Müharibədən sonrakı reallıqlar və media" mövzusunda üçgünlük təlimlərin açılışı olub.

AZƏRTAC xəbər verir ki, jurnalistlər üçün keçirilən təlimlərin məqsədi Azərbaycandakı media nümayəndələrinin müharibədən sonrakı dövrdə fəaliyyətlərinə töhfə verməkdir.

Təlimlərin açılış mərasimində Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva və başqaları iştirak ediblər.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, təlimlərin təşkilində əsas məqsəd beynəlxalq qurumlarla işləyən və media sahəsində çalışan jurnalistlərin peşəkarlığının artırılmasıdır. Onun sözlərinə görə, media nümayəndələri beynəlxalq qurumlarla, səfirliklərlə sıx işləməli, həqiqətlərin dünyaya çatdırılmasında daha fəal olmalıdırlar.

Media sahəsində müəyyən problemlərin olduğunu diqqətə çatdıran F.Şəfiyev beynəlxalq əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, jurnalistlər məzmun yaratmalıdırlar. Məqsəd odur ki, beynəlxalq münasibətlər çərçivəsində əlaqələr daha da inkişaf etdirilsin, Azərbaycanın səsi beynəlxalq aləmdə daha yaxşı eşidilsin. Bu mənada araşdırma xarakterli yazıların sayı artırılmalıdır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov vurğulayıb ki, müharibədən sonrakı reallıqların beynəlxalq ictimaiyyətə çatdırılmasında medianın üzərinə böyük məsuliyyət düşür. Postmüharibə və postmünaqişə dövründə bu mövzuda təlimlərin təşkili mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq sahədə ixtisaslaşmış jurnalistlərə böyük ehtiyac duyulur.

Ə.İsmayılov diqqətə çatdırıb ki, Azərbaycan jurnalistləri hər zaman fədakarlıqları ilə seçiliblər. Biz bunu Vətən müharibəsi dövründə də gördük. Jurnalistlər peşəkarlıqlarını daim artırmalıdırlar. Media nümayəndələrinin peşəkarlığı ölkə daxilində qalmamalı, sərhədləri aşmalıdır.

İcraçı direktor Medianın İnkişafı Agentliyinin bu platformanı öz üzərinə götürəcəyini və prosesin davam etdiriləcəyini bildirib. Bu platformanın həm jurnalistlərin peşəkarlığının artırılmasına, həm də ümumi işə fayda verəcəyini qeyd edən Ə.İsmayılov təlimlərə xarici mütəxəssislərin də cəlb olunacağını diqqətə çatdırıb.

İcraçı direktorun sözlərinə görə, qarşıya qoyulan məqsədlərdən biri də rəqəmsal medianın inkişaf etdirilməsidir.

Əhməd İsmayılov vurğulayıb ki, son dövrlərdə sosial şəbəkələrin təsirinin artması danılmazdır. Media sahəsində rəqəmsallıq, sosial şəbəkələrlə iş və peşəkarlıq vəhdət təşkil etməlidir. Jurnalistin adi vətəndaşdan fərqi hadisələri obyektiv və qərəzsiz təqdim etməsidir. Burada maarifləndirmə də mühüm şərtdir.

Açılış mərasimindən sonra Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Azərbaycanın müharibədən sonrakı dövrədə mövqeyinin beynəlxalq mediaya düzgün çatdırılması dili və terminologiyanın dəyişməsi", Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik-leytenant Anar Eyvazov "Media nümayəndələrinin işğaldan azad olunmuş bölgələrdə davranışı" və BMTM-in baş məsləhətçisi Vasif Hüseynov "Xarici mediada Azərbaycan həqiqətlərinin çatdırılmasına dair məqalələrin yazılması" mövzularında təlimlər keçiblər.

Qeyd edək ki, təlimlərin ikinci günündə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov "Postmünaqişə dövründə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması. Təhdidlər və perspektivlər", Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi Yalçın Rəfiyev "44 günlük Vətən müharibəsi dövründə və ondan sonra beynəlxalq təşkilatlar çərçivəsində aparılan fəaliyyət", Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Postmünaqişə dövründə Azərbaycanın xarici siyasətinin prioritetləri" mövzularında mühazirələr oxuyacaqlar.

Təlimlərin üçüncü günü - yanvarın 26-da Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi, Hərbi Nəşriyyat və Hərb Tarixi Muzeyinə press-tur təşkil ediləcək.

Sonda jurnalistlərə sertifikatlar təqdim olunacaq.

## İnsan hüquqları komitəsinin iş planı təsdiq olunub

Dünən Milli Məclisin İnsan hüquqları komitəsinin yaz sessiyasında ilk iclası keçirilib. Onlayn formatda keçirilən iclası açan komitənin sədri Zahid Oruc deputatlara qarşıdan gələn sessiyada uğurlar diləyib. İclasın gündəliyi barədə məlumat verən komitə sədri bildirib ki, gündəliyə Milli Məclisin 2021-ci ilin payız sessiyası ərzində İnsan hüquqları komitəsində görülən işlər barədə hesabat və 2022-ci ilin yaz sessiyası üçün iş planı daxil edilib.

Əvvəlcə komitənin ötən sessiyada gördüyü işlər barədə hesabatı müzakirə edilib. Komitə sədri bildirib ki, hesabat dövründə İnsan hüquqları komitəsinin 9 iclası keçirilib.

Zahid Oruc həmin iclaslarda baxılan qanun layihələri barədə qısa məlumat verib, "Media haqqında" qanun layihəsinin geniş dinləmələrdən, müxtəlif platformalarda müzakirələrdən keçdiyini xüsusi vurğulayıb. O, ötən sessiya dövründə komitədə keçirilən görüşlərdən, aparılan müzakirələrdən və digər tədbirlərdən də danışıb.

Qeyd olunub ki, hesabat dövründə komitəyə 470 müraciət daxil olub. Vətəndaşlardan daxil olan ərizə və müraciətlər komitədə geniş təhlil olunub, araşdırılıb, müvafiq tədbirlər görülüb və ya onların həlli üçün aidiyyəti qurumlar qarşısında məsələ qaldırılıb.

Onlayn iclasda İnsan hüquqları komitəsi sədrinin müavini Tahir Kərimli, komitə üzvləri Hikmət Məmmədov, Naqif Həmzəyev, Razi Nurullayev, Elman Nəsirov çıxış ediblər. Deputatlar ötən sessiya dövründə Milli Məclisin qarşısında duran vəzifələrin öhdəsindən ləyaqətlə gəlindiyini, parlament diplomatiyasının uğurla həyata keçirildiyini bildiriblər. Çıxış edənlər müzakirəyə çıxarılan hesabatla bağlı fikirlərini bildiriblər, komitənin fəaliyyətindən, seçicilərlə apardıqları işlərdən bəhs ediblər. Sonda komitə üzvləri hesabatı məqbul sayıblar.

Sonra İnsan hüquqları komitəsinin 2022-ci il yaz sessiyası üçün iş planı müzakirə edilib. İş planı haqqında məlumat verən komitə sədri Zahid Oruc bildirib ki, növbəti sessiyada bir sıra qanun layihələrinin və sənədlərin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması ilə yanaşı, bəzi dinləmələrin də keçirilməsi nəzərdə tutulub. Komitə sədri işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın və reinteqrasiyanın tənzimlənməsi barədə fikirlərini də bölüşüb.

İş planının müzakirəsində parlamentin komitə sədrinin müavini Tahir Kərimli, deputatlar Bəhruz Məhərrəmov, Elşad Mirbəşiroğlu, Naqif Həmzəyev, Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnsan hüquqları üzrə qanunvericilik sektorunun müdiri Sarvan Sadıqov iş planı barədə fikirlərini açıqlayıblar. Çıxış edən deputatlar insan hüquqlarının, o cümlədən qadın hüquqlarının qorunmasının tənzimlənməsi kimi məsələlərlə bağlı müzakirə və dinləmələrin təşkili barədə rəylərini səsləndiriblər. Sonra iş planı səsə qoyularaq təsdiqlənib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Vahid əlaqələndirmə mərkəzlərində 11 min şəxsə xidmət göstərilib

Prezident İlham Əliyevin 2021-ci il iyunun 25-də imzaladığı Fərmanla yaradılan vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 11 min şəxsə xidmət göstərilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, hazırda Bakı şəhəri və Abşeron rayonundakı DOST mərkəzlərində, həmçinin Gəncə şəhərində, Masallı və Ucar rayonlarında regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyət göstərir.

Mərkəzlərdə həmin kateqoriyalara aid şəxslərə 39 qurum, 6 mərkəzi (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti) və 33 yerli icra hakimiyyəti orqanı tərəfindən "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında 26 istiqamətdə xidmətlər təqdim edilir.

Yaxın günlərdə digər regionlarda da vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyətə başlaması üçün hazırlıq işləri aparılır.

## "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsi müzakirə ediləcək

Yanvarın 24-də Milli Məclisin Mədəniyyət komitəsinin 2022-ci ilin yaz sessiyasında ilk iclası keçirilib. Videokonfrans formatında keçirilən iclası açan komitə sədrinin müavini Fazil Mustafa gündəlik barədə məlumat verib.

Sonra komitədə 2021-ci ilin payız sessiyasında görülən işlərin hesabatı təqdim edilib. Fazil Mustafa diqqətə çatdırıb ki, ötən müddətdə komitənin 14 iclası keçirilib, 21 məsələyə baxılıb, 6 qanun layihəsi, o cümlədən bir sıra qanunlara dəyişiklik və əlavələrin edilməsi barədə məsələlər müzakirə edilib. Qeyd olunub ki, komitə üzvləri həmçinin "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" və "Turizm haqqında" qanun layihələri ilə bağlı müzakirələrdə iştirak edərək, rəy və təkliflərini bildiriblər.

Məlumat verilib ki, payız sessiyası ərzində komitənin ünvanına 1012 müraciət daxil olub. Müraciətlər baxıldıqdan sonra lazımi tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara göndərilib.

İclasda komitənin 2022-ci ilin yaz sessiyası üçün iş planı barədə də məlumat verilib. Komitə sədrinin müavini bildirib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanunvericilik aktları, "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq. Plana əsasən, parlamentin digər komitələrindən daxil olan layihələrə rəy və təkliflərin hazırlanması, habelə dinləmələrin keçirilməsi nəzərdə tutulub. Eyni zamanda komitə üzvləri tərəfindən vətəndaşların qəbulu, daxil olan müraciətlərlə iş, 2022-ci ilin yaz sessiyası dövründə komitənin fəaliyyətinə dair hesabatın hazırlanması ilə bağlı müddəalar da iş planında öz əksini tapıb.

Müzakirələrdə çıxış edən komitə üzvləri payız sessiyasında komitə sədrinin və üzvlərinin səmərəli fəaliyyət göstərdiyini qeyd ediblər, yaz sessiyasının iş planı barədə fikir və təkliflərini səsləndiriblər.

Tədbirdə parlamentin Mədəniyyət komitəsinin 2021-ci ilin payız sessiyasında görülən işlər barədə hesabatı qənaətbəxş hesab edilib, komitənin 2022-ci ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## 100-dən çox yaşayış məntəqəsində elektrik enerji şəbəkəsi tamamilə yenidən qurulub

"Azərişıq" ASC yeni ildən etibarən regionlarda yeni layihəyə start verib. Bu il ərzində ümumilikdə müxtəlif regionları əhatə edən 100-dən çox kənd və yaşayış məntəqəsinin elektrik enerji şəbəkəsi tamamilə yenidən qurulacaq. Bu barədə qurumun Mətbuat xidməti məlumat verib.

Bu layihə çərçivəsində Sabirabadın 3 kəndinin elektrik şəbəkəsi yenidən qurulur. Rayonun Əliləmbəyli, Ağasən və Çöl Ağammədli kəndlərinin elektrik şəbəkələrində yenidənqurma işlərinə başlanılıb.

Bu kəndlərdə 1970-ci illərdən istismarda olan köhnəlmiş transformator məntəqələri, elektrik naqilləri, ağac dayaqlar və sayğaclar yeniləri ilə əvəz olunub.

İşlərə başlanıldıqdan qısa müddət sonra Əliləmbəyli kəndində 210 evi qidalandıran, müxtəlif gücdə 5 ədəd kompleks transformator məntəqəsi quraşdırılıb. 22 km-ə yaxın 0,4 kV-luq elektrik xətti yenilənib.

Ağasən və Çöl Ağammədli kəndlərində isə 7 ədəd müasir tipli kompleks transformator məntəqəsinin quraşdırılması planlaşdırılıb. Onlardan 3-ü artıq hazır vəziyyətə gətitilib.

Görülən işlər çərçivəsində hər 3 kəndin ərazisində 1600 ədəd dayaq basdırılıb, 39 km-ə yaxın 0,4 kV-luq elektrik xətti çəkilib. Həmçinin abonentlərin sayğacları yenilənib.

Layihənin icrası tam başa çatdıqdan sonra Əliləmbəyli, Ağasən və Çöl Ağammədli kəndlərində 369 abonentin elektrik enerjisi təchizatı yaxşılaşacaq.

# Baş Prokurorluqda 2021-ci ildəki fəaliyyətin yekunlarına dair geniş kollegiya iclası olub

Yanvarın 24-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi Aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2021-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Baş Prokurorluğun rəhbərliyi Ulu Öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyub, əbədiyaşar liderin unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Kollegiya iclasında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb, qazilərə şəfa dilənib.

İclasda giriş nitqi ilə çıxış edən baş prokuror Kamran Əliyev diqqətə çatdırıb ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi və xilaskarı, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin müzəffər davamçısı, tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı Prezident İlham Əliyevin rəhbərliyi ilə milli inkişaf konsepsiyasının müasir çağırışlara uyğun şəkildə uğurla, inamla həyata keçirilməsi ölkəmizin növbəti onilliklər üçün tərəqqisini və qələbələrini təmin edib.

Qeyd olunub ki, Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılan, milli qürur və ləyaqət hissini bərpa edən böyük Zəfər regionumuzda yeni geosiyasi reallıqlar yaratmaqla, dövlət başçısının rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən misli görünməmiş sürətli bərpa-quruculuq işləri Qarabağa və Şərqi Zəngəzura əzəli-əbədi sakinlərin qayıdışının təməlini qoyub.

Qarabağın tacı Şuşada keçirilmiş tarixi-mədəni tədbirlər, Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanı və digər çoxsaylı obyektlərin istifadəyə verilməsi, yenilərinin təməlinin qoyulması ilə "Şuşa ili"ndə mədəniyyət paytaxtımızın əvvəlki şöhrətinin və əzəmətinin qaytarılacağı ifadə edilib.

Kollegiya iclasında qeyd edilib ki, daim Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunan prokurorluq orqanları hesabat dövründə dövlət başçısının Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirakı, qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliliyinin artırılması işində müstəsna önəmə malik 2021-ci il 7 may tarixli Fərmanı, Qubadlı, Kəlbəcər və Ağdam Hərbi prokurorluqlarının yaradılması, həmçinin bir qrup əməkdaşa ali xüsusi rütbələrin verilməsi göstərilən etimadla yanaşı, prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması istiqamətində islahatların ardıcıllığını nümayiş etdirib.

Həyata keçirilən kompleks və ardıcıl tədbirlərin davamı kimi, 14 mənzilli yaşayış kompleksinin istifadəyə verilməsi ilə prokurorluq əməkdaşlarından və veteranlardan ibarət kooperativ üzvlərinin güzəştli şərtlərlə mənzillərlə təmin edilməsinin dövlət başçısının dəstəyi ilə prokurorluq orqanları əməkdaşlarının və veteranlarının sosial müdafiəsinin gücləndirilməsində xüsusi əhəmiyyətə malik olduğu bildirilib.

Hesabat məruzəsində qeyd edilib ki, 2021-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu dövr olub, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlər həyata keçirilib.

Ümumilikdə, cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan əvvəlki hesabat ilinin müsbət göstəricilərinin 2021-ci ildə də davam etdiyi, əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə qeydə alınmış 31 min 131 cinayətin 87,3 faizinin açılması təmin olunduğu, bu cinayətlərin 94,2 faizini prokurorluq və daxili işlər orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər təşkil etdiyi bildirilib.

Məlumat verilib ki, 2020-ci illə müqayisədə prokurorluq, daxili işlər və dövlət təhlükəsizlik orqanları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində şəxsiyyət əleyhinə cinayətlər, o cümlədən qəsdən adamöldürmələr, adamöldürməyə cəhdlər, qəsdən sağlamlığa az ağır zərər vurmalar, həmçinin oğurluq və soyğunçuluq cinayətlərinin sayı azalıb. Ötən illərdən bağlı qalmış 332 cinayətin açılması təmin edilib və 268 cinayətkar qrup zərərsizləşdirilib.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 1301 şəxs barəsində 970 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq məhkəmələrə göndərilib. Bu müddətdə prokurorluq və müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarında qeydə alınmış cinayət işləri üzrə ümumilikdə 206 milyon 257 min manat məbləğində maddi ziyan ödənilib.

Kollegiya iclasında Prezident İlham Əliyevin təşəbbüsü ilə Vətən müharibəsində qazanılmış tarixi Qələbənin birinci ildönümü münasibətilə Milli Məclis tərəfindən qəbul edilmiş "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərarın prokurorluq orqanları tərəfindən təxirəsalınmadan və düzgün icrasının təmin edildiyi diqqətə çatdırılıb. Hesabat dövründə ümumilikdə 10 min 943 şəxs barəsində amnistiyanın tətbiq edildiyi, hazırda da bu istiqamətdə işlərin intensiv qaydada davam etdirildiyi bildirilib.

Qeyd edilib ki, Prezident İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizə ötən dövrlərdə olduğu kimi, 2021-ci ildə də davam etdirilib. Korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 493 şəxs barəsində 301 cinayət işinin ibtidai istintaqı tamamlanıb, 466 şəxs barəsində 274 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib.

Hesabat dövründə cinayət işləri üzrə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi məqsədilə Baş İdarə tərəfindən istintaqı başa çatdırılmış cinayət işləri üzrə 39 milyon 285 min manat məbləğində ziyanın ödənilməsi təmin edilib. Həmçinin cinayət qanunvericiliyinin tələblərinə əsasən, təqsirləndirilən şəxslər tərəfindən dövlət büdcəsinə 2 milyon 195 min manat ödənilib, 101 milyon 373 min manat dəyərində əmlak üzərinə həbs qoyulub. Ötən il 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi vasitəsilə korrupsiya hüquqpozmaları barədə Baş İdarəyə daxil olmuş müraciətlərin 67-si üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlər görülüb. Bu müddətdə Baş İdarənin əməliyyat qurumları vəzifələrini uğurla icra edib. Keçirilən əməliyyat tədbirləri nəticəsində 73 şəxs cinayət başında yaxalanıb, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə olunmuş məlumatlar əsasında 118 cinayət işi başlanıb.

Dövlət başçısı İlham Əliyevin bir neçə gün əvvəl yerli televiziya kanallarına müsahibəsində qeyd etdiyi "...heç kim bu məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir, heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq" fikirlərinə uyğun olaraq, prokurorluq orqanları tərəfindən ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, sosial, iqtisadi və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması istiqamətində sistemli, ardıcıl və qətiyyətli tədbirlərin davam etdiriləcəyi xüsusi vurğulanıb.

Hesabat dövründə Respublika Hərbi Prokurorluğu orqanları tərəfindən Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər qurumlarla birlikdə görülmüş işlər nəticəsində hərbi intizamın möhkəmləndirildiyi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alındığı, ümumilikdə qurumun fəaliyyətini postmüharibə dövrünün tələblərinə uyğun qurmaqla ordu quruculuğunun davam etdiyi yeni mərhələdə zəruri tədbirlərin həyata keçirildiyi qeyd edilib. Hesabat dövründə hərbi prokurorluq orqanları tərəfindən 1846 cinayət hadisəsi qeydə alınıb. Onlardan 530-u korrupsiya cinayətləri ilə bağlı olub. Bu dövrdə hərbi prokurorluq orqanları tərəfindən korrupsiya cinayətləri üzrə 110 şəxs barəsində 85 cinayət işinin istintaqı yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə hərbi məhkəmələrə göndərilib.

Diqqətə çatdırılıb ki, qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri ilə əlaqədar Hərbi Prokurorluqda istintaq edilən cinayət işi üzrə bu günədək 297 şəxs barəsində Cinayət Məcəlləsinin 103-cü (soyqırımı), 113-cü (işgəncə), 115-ci (müharibə qanunlarını və adətlərini pozma), 116-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və s. maddələri ilə təqsirləndirilən şəxs qismində cəlbetmə qərarları çıxarılaraq barələrində axtarışlar elan edilib. Bundan əlavə, Ermənistan Respublikasının vətəndaşları Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işinin ibtidai istintaqı tamamlanaraq aidiyyəti üzrə baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Hazırda Azərbaycan Respublikasının ərazilərində qanunsuz fəaliyyət göstərmiş erməni separatçı rejiminin silahlı hərbi birləşmələri və Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə, habelə müharibə və digər cinayətlərin araşdırılması ilə bağlı yaradılmış birgə istintaq-əməliyyat qrupu tərəfindən cinayət hadisələrinin araşdırılması, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli olan şəxslərin müəyyənləşdirilməsi, sübutların toplanması və təqsirləndirilən şəxs qismində cəlb olunmaları yönündə işlər davam etdirilir.

2021-ci ildə Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində müsbət göstəricilər əldə edilib, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarət artırılıb, vətəndaşların müraciətlərinə baxılması, onların problemlərinin həll olunması diqqət mərkəzində saxlanılıb.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsində 328 cinayət işinin ibtidai istintaqı aparılıb və 120 şəxs barəsində 96 cinayət işinin istintaqı tamamlanıb. Tamamlanmış işlərdən 118 şəxs barəsində 64 cinayət işi mahiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib. Bunlardan 24 şəxs barəsində 17 iş qəsdən adamöldürmə faktları ilə bağlı olub.

Hesabat dövründə cinayət işləri üzrə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi məqsədilə İstintaq idarəsi tərəfindən istintaqı başa çatdırılmış cinayət işləri üzrə 67 milyon 165 min manat məbləğində ziyanın ödənilməsi təmin edilib. Həmçinin cinayət qanunvericiliyinin tələblərinə əsasən, təqsirləndirilən şəxslər tərəfindən dövlət büdcəsinə 45 milyon 190 min manat ödənilib, 21 milyon 975 min manat dəyərində əmlak üzərinə həbs qoyulub.

Vurğulanıb ki, 2021-ci ildə əvvəlki illərdən, eləcə də hesabat dövründə qeydə alınmaqla bağlı qalmış 8 cinayətin açılması təmin edilib. Onlardan 5 iş üzrə ibtidai istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilib, 3 iş üzrə isə hazırda istintaq davam etdirilir.

Ötən il də intihar və intihara cəhd hadisələrinin minimuma endirilməsi məqsədilə zəruri tədbirlər görülüb. Bu sahədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar Baş Prokurorluğun təşkilatçılığı, çoxsaylı dövlət qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə 2021-ci il iyunun 23-də yüksəksəviyyəli konfrans keçirilməklə qurumlararası işçi qrup yaradılıb. Hazırda işçi qrup tərəfindən 2021-2025-ci illər üzrə təsdiqlənmiş fəaliyyət planına uyğun olaraq müvafiq işlər görülür.

Hesabat dövründə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması, təhlillərin aparılması, eləcə də mövcud vəziyyətin dəyərləndirilərək müvafiq təkliflərin təqdim edilməsi məqsədilə İşçi qrup yaradılmaqla aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə fəaliyyət göstərilib.

Bundan başqa, qaz sızması və partlayışı, dəm qazı səbəbindən ölüm və sağlamlığa zərər vurulması hallarının qarşısının alınması istiqamətində Ədliyyə Nazirliyində yaradılmış İşçi qrupda Baş Prokurorluğun nümayəndələrinin iştirakı təmin edilib, aidiyyəti normativ-hüquqi aktlarda zəruri dəyişikliklərin edilməsi ilə əlaqədar 8 layihə hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunub.

Bildirilib ki, əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanlarında ibtidai istintaqı aparılmış cinayət işləri üzrə icraata xitam verilməsinə dair 846, icraatın dayandırılması haqqında 889 qərarın əsassız və qanunsuz hesab edilərək ləğv olunması, həmçinin 767 iş üzrə yazılı göstərişlərin verilməsi prokurorluq tərəfindən həyata keçirilən ibtidai araşdırmaya prosessual nəzarətin səmərəliliyinin göstəricisi olub.

Hesabat dövründə dövlət ittihamının müdafiəsi diqqət mərkəzində saxlanılıb. Ümumilikdə ötən il ərzində birinci instansiya məhkəmələrində 17 min 698 şəxs barəsində 15 min 199, apellyasiya instansiyası məhkəmələrində 4781 şəxs barəsində 4100, kassasiya və əlavə kassasiya instansiyası məhkəməsində 1984 şəxs barəsində 1766 (bütün instansiya məhkəmələri üzrə cəmi 24 min 463 şəxs barəsində 21 min 65 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilib.

Ötən il cinayət təqibindən kənar icraatlar üzrə nəzarət tədbirləri ilə əlaqədar 21 xəbərdarlıq, 43 təqdimat verilib. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin, habelə sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma, vergiləri, sığorta haqlarını ödəməkdən yayınma, ekoloji hüquqpozmalar və s. inzibati xətalara dair daxil olmuş məlumatlardan 131-i baxılması üçün məhkəmələrə və dövlət orqanlarına göndərilib. Törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatlar üzrə 45 cinayət işi başlanaraq, uşaqların hüquqlarının qorunması istiqamətində valideyn hüquqlarının məhdudlaşdırılmasına dair məhkəmələrdə 12 mülki iddia qaldırılıb.

Bildirilib ki, ötən il xüsusi müsadirənin həyata keçirilməsi istiqamətində aktivlərin aşkarlanması və izlənməsi sahəsində görülən tədbirlərlə təqsirləndirilən şəxslərə məxsus 227 daşınmaz əmlak, 83 torpaq sahəsi, 314 nəqliyyat vasitəsi, müxtəlif banklarda 51 kart hesabı və 22 cari hesab müəyyənləşdirilib. Faktiki olaraq təqsirləndirilən şəxslərə məxsus 109 nəqliyyat vasitəsi və 12 daşınmaz əmlak aşkarlanıb.

Eyni zamanda xarici ölkələrdəki əmlakların müsadirə edilməsi məqsədilə zəruri tədbirlərin görülməsinə başlanılıb. Aprelin 26-29-da Belçikada keçirilmiş Aktivlərin Bərpası üzrə Kemden Qurumlararası Şəbəkəsinin (CARIN) İdarəetmə qrupunun ümumi illik yığıncağında Azərbaycan Respublikası şəbəkəyə müşahidəçi qismində üzv qəbul olunub. Bu istiqamətdə görülən işlərin davamı olaraq tezliklə Avropa İttifaqına üzv ölkələrin dövlət təsisatlarının mütərəqqi təcrübəsinin öyrənilməsi məqsədilə Litvanın Xüsusi İstintaq Xidməti tərəfindən "Azərbaycanda əmlakların bərpası və idarə olunması sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsinin həyata keçirilməsinə başlanılacağı qeyd edilib.

Hesabat dövründə koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmləndiyi, bu müddətdə Rusiya Federasiyası baş prokurorunun və Türkiyə Respublikası Ali Məhkəməsi baş prokurorunun rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə işgüzar səfərləri zamanı dövlətimizin başçısı İlham Əliyev tərəfindən qəbul olunması ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə hərtərəfli zəmin yaratdığı bildirilib.

Xüsusi vurğulanıb ki, ötən il noyabrın 1-də Bakıda keçirilmiş Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Baş Prokurorları Şurasının ilk iclasında Şuranın Əsasnaməsinin imzalanaraq təsis edilməsi türkdilli ölkələr arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına yeni impuls verməklə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə xidmət edəcək.

Qurumun xarici tərəfdaşlarla səmərəli əməkdaşlığının təzahürü olaraq ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən 32 şəxsin tutularaq ölkəmizə ekstradisiyası həyata keçirilib.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi məqsədilə hesabat dövründə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Türkiyə Respublikası Ədliyyə Akademiyası, Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası, Belarus Respublikası İstintaq Komitəsinin "İxtisasartırma və yenidən hazırlıq institutu" təhsil müəssisəsi, həmçinin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi, Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlığa dair memorandumlar imzalanıb. Bununla yanaşı, korrupsiyaya qarşı mübarizə, dövlət qulluğu və özəl sektorda dürüstlük, etik dilemmalar, onların həlli yolları, düzgün davranış, əməl edilməli olan əsas etik prinsiplər və sair məsələlərlə bağlı tədris və peşə hazırlığının həyata keçirilməsi məqsədilə yaradılmış Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının Antikorrupsiya Təlim Mərkəzi bu sahədə mütəxəssislərin peşəkarlığının artırılmasına xidmət edəcək.

Kollegiya iclasında ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq, prokurorluq orqanlarının hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi istiqamətində ötən il işə qəbul edilmək arzusunda olan şəxslər üçün keçirilmiş 22-ci müsabiqənin nəticəsinə görə 100 namizədin müvəffəqiyyət qazanaraq müvafiq vəzifələrə təyin olunduğu bildirilib. Qeyd edilib ki, 23-cü müsabiqə üzrə uğur qazanmış 83 namizəd də icbari təlimə cəlb olunub.

Müşavirədə bildirilib ki, prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkarlanan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2021-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılıb. Hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə 52 nəfər prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib. Onlardan 2-si prokurorluq orqanlarından xaric edilib, 5 nəfər vəzifədən azad olunub, 30 nəfərə töhmət və ya şiddətli töhmət, 15 nəfərə isə irad intizam tənbehi tədbiri tətbiq edilib.

Hesabat dövründə prokurorluq orqanlarına daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müxtəlif sahələr üzrə müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi məqsədilə müraciətlərin 9477-nin tam, 3060-nın isə qismən təmin olunması, həmçinin Baş Prokurorluğun Çağrı Mərkəzinə daxil olmuş müraciətlərdən 380-nin cinayət xarakterli məlumat kimi araşdırılması vətəndaş məmnunluğunun təmin olunması üzrə həyata keçirilən tədbirlərin nəticəsidir.

Kollegiya iclasında fəaliyyətdə səmərəliliyin artırılması, işğaldan azad edilmiş rayonların prokurorluqlarının peşəkar kadrlarla komplektləşdirilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş, itkin düşmüş və əlil olmuş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının hər bir müraciətinə xüsusi diqqət və həssaslıqla yanaşılması, artım tendensiyası müşahidə edilən cinayətlərin qarşısının alınması, bağlı qalan bütün cinayətlər üzrə təqsirli şəxslərin müəyyənləşdirilməsi, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət və prosessual rəhbərliyin keyfiyyətinin artırılması və digər istiqamətlərdə konkret tapşırıqlar verilib.

Sonra baş prokurorun birinci müavini Elçin Məmmədov, baş prokurorun müavini-Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyev, baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov, baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Gəncə şəhər prokuroru Azad Qarayev və Füzuli rayon prokuroru Elnur Rüstəmov hesabat dövründə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair çıxışlar ediblər. İclasda həmçinin faydalı fikir mübadiləsi aparılıb.

Kollegiya iclasına yekun vuran baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi və qanun pozuntularına qarşı mübarizənin gücləndirilməsi sahəsində bundan sonra da zəruri tədbirlər görəcək.

İclasdan sonra baş prokurorun birinci müavininin sədrliyi, baş prokurorun müavinlərinin, idarə, şöbə rəislərinin, tabe şəhər, rayon və ərazi hərbi prokurorlarının iştirakı ilə keçirilmiş seminar-məşğələdə rayon prokurorlarının xidməti fəaliyyətdə üzləşdikləri praktiki çətinliklər, cinayət təqibinin həyata keçirilməsi prosesində meydana çıxan hüquqi kolliziyalar və prokurorluğun fəaliyyət istiqamətləri üzrə səmərəliliyin artırılması ilə əlaqədar sahəvi idarələrin nümayəndələri ilə birlikdə müzakirələr aparılıb. Müzakirələr nəticəsində baş prokurora təqdim edilməsi üçün müvafiq təkliflərin hazırlanması qərara alınıb.

# Şuşaya yola düşən ilk avtobusun sərnişinləri şəhərin tarixi-mədəni məkanları ilə tanış olublar







Yanvarın 24-də Bakı-Şuşa reysi ilə hərəkət edən ilk sərnişin avtobusu Şuşa şəhərinə çatıb.

AZƏRTAC xəbər verir ki, saat 13:00 radələrində şəhərə daxil olan və 44 sərnişin gətirən avtobus keçmiş avtovağzal ərazisində qarşılanıb. Qarşılanma mərasimində Prezidentin Şuşa rayonu üzrə xüsusi nümayəndəliyinin, Şuşa Şəhər Dövlət Qoruğu İdarəsinin, Şuşa Şəhər Polis Şöbəsinin əməkdaşları və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Prezidentin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov çıxışında qeyd edib ki, Bakı-Şuşa avtobus reysinin açılması şəhər üçün xüsusi əhəmiyyət daşıyır.

Aydın Kərimov bildirib ki, Şuşanın azad olunduğu gündən bir ildən bir qədər çox vaxt keçib. Bu dövr ərzində Prezident İlham Əliyevin tapşırığı və nəzarəti ilə şəhərdə irimiqyaslı bərpa və quruculuq işlərinə başlanıb. Bunların sırasında tarixi-mədəni abidələrin bərpası, yeni məktəb, xəstəxana, müasir yaşayış kompleksinin inşasını xüsusi qeyd etmək olar.

Xüsusi nümayəndənin sözlərinə görə, Bakı-Şuşa avtobus reysinin ilk sərnişinləri mədəniyyət paytaxtı elan olunan Şuşa ilə əyani tanış ola biləcək, şəhərin dirçəlməsinin canlı şahidi olacaqlar. O, səfərin təşkil olunmasına görə ölkə rəhbərliyinə və aidiyyəti qurumlara təşəkkür edib.

Şuşa Şəhər Polis şöbəsinin rəisi Səməd Məhərrəmov sərnişinləri salamlayaraq müvafiq təhlükəsizlik tədbirləri haqqında məlumat verib və qonaqlara xoş istirahət arzu edib.

Qarşılanma mərasimindən sonra ilk sərnişinlər Şuşa qalası, Bülbülün Ev-Muzeyi, Cıdır düzü kimi tarixi məkanları ziyarət ediblər.

# Müntəzəm avtobus marşrutunun ilk sərnişinlərinə Ağdamda aparılan genişmiqyaslı tikinti işləri barədə məlumat verilib

Yanvarın 24-də Bakı-Ağdam-Bakı müntəzəm avtobus marşrutu istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, saat 06:30-da Bakıdan yola çıxan ilk sərnişin avtobusu Ağdama çatıb.

Qeyd edək ki, Bakı-Ağdam-Bakı avtobus reysi həftədə iki dəfə həyata keçiriləcək. Bakıdan Ağdama avtobus bileti 9 manat 40 qəpikdir. Marşrut xətlərinə bilet satışı onlayn qaydada "Yolumuz Qarabağa" portalı vasitəsilə həyata keçirilir. Sərnişinlər gediş və qayıdış biletlərini əvvəlcədən eyni vaxtda sifariş etməlidirlər. Müəyyən imtiyazlı şəxslərə ildə bir dəfə bu istiqamətlər üzrə pulsuz bilet almaq imkanı yaradılıb. Bu kateqoriyaya Vətən müharibəsi qəhrəmanları, Milli qəhrəmanlar, şəhid ailəsinin üzvləri, Qarabağ müharibəsi əlilləri aiddir. İmtiyazlı şəxslər də daxil olmaqla bütün şəxslərə işğaldan azad olunmuş ərazilərə il ərzində yalnız bir dəfə səfər etmək hüququ verilir. Sərnişin daşınması ilə bağlı müəyyən olunmuş kateqoriyalar üzrə növbəliliyin təmin edilməsi, kvotalara riayət edilməsi və güzəştlərin tətbiqi məqsədilə onlayn bilet satışı xidməti işğaldan azad olunmuş ərazilərə giriş icazəsi sisteminə, həmçinin COVID-19 virusuna yoluxma risklərinin minimuma endirilməsi üçün müvafiq informasiya sistemlərinə inteqrasiya olunub.





Yeni marşrutlar üzrə sərnişindaşımanı həyata keçirən sürücülər mina təhlükəsizliyinə dair təlimlərə cəlb edilib və onlara əsas təhlükəsizlik qaydalarına dair Təlimat kitabçaları təqdim olunub.

Qarşılanma mərasimindən sonra sərnişinlər Cümə məscidində dua edərək, İmarət Kompleksi və Şahbulaq qalası ilə tanış olublar. Onlar həmçinin Dram Teatrın qalıqlarına baxıb və Şəhidlər xiyabanını ziyarət ediblər. Erməni barbarlığını gözləri ilə görən sərnişinlər torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının ruhuna dualar oxuyublar.

Sərnişinlərə Ağdamda həyata keçirilən genişmiqyaslı tikinti, abadlıq-quruculuq işləri barədə də ətraflı məlumat verilib.

# Ədliyyə Nazirliyinin vahid Çağrı mərkəzinin təqdimatı olub

Əhalinin ədliyyə fəaliyyəti barədə mütəmadi məlumatlandırılması, vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının təmin olunması məqsədilə həm kütləvi informasiya vasitələrinin, həm də vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı, eləcə də Ədliyyə Nazirliyinin rəsmi saytlarının və sosial şəbəkələrdəki səhifələrinin imkanlarından geniş istifadə olunması ənənəsi davam etdirilir. Dövlət başçısının tapşırıqlarının icrası istiqamətində xüsusi karantin rejimi dövründə nazirliyin rəsmi "Feysbuk" səhifəsində ədliyyənin müxtəlif fəaliyyət istiqamətləri üzrə canlı yayımların təşkili də əhalinin hüquqi maarifləndirilməsində mühüm əhəmiyyətə malikdir.

AZƏRTAC xəbər verir ki, bu istiqamətdə həyata keçirilən növbəti tədbirlər çərçivəsində yanvarın 24-də Ədliyyə Nazirliyi tərəfindən onlayn qaydada növbəti canlı yayım təşkil edilib.

Nazirlikdə fəaliyyət göstərən "qaynar xətt"lərin əsasında vahid Çağrı mərkəzinin yaradılması və müasir İKT-nin tətbiqi istiqamətində zəruri tədbirlər görülüb. Belə ki, IP telefoniya texnologiyaları əsasında zəruri proqram texniki infrastruktur formalaşdırılmış, üçrəqəmli (881) vahid telefon nömrəsi əldə edilib, əməkdaşlar üçün avtomatlaşdırılmış işçi yerləri quraşdırılıb.

Müraciət edənlər barədə asan və tez məlumat almaq, əlavə araşdırma tələb olunan müraciətləri aidiyyəti üzrə ötürmək və cavabları toplamaq işinin operativliyinin təmin edilməsi məqsədilə yeni sistem "Əhalinin dövlət reyestri" və "Elektron sənəd dövriyyəsi" ilə inteqrasiya olunub.

Diqqətə çatdırılıb ki, eyni zamanda Çağrı mərkəzində çalışacaq işçilər üçün vəzifə təlimatı hazırlanıb, nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq vətəndaşların daha çox ünvanladıqları müraciətlərlə bağlı şablon cavab formaları tərtib edilərək müvafiq sistemə yerləşdirilib.

Operatorlar Çağrı mərkəzinə daxil olan zəngləri qəbul edəcək və dərhal cavablandıracaq, müraciətin birbaşa cavablandırılması mümkün olmadıqda aidiyyəti üzrə nazirliyin struktur qurumlarına ötürəcəklər.




# Cənubi Qafqazın güc və beyin mərkəzi

*Əvvəli 1-ci səh.*

Ancaq eyni zamanda Azərbaycan dövləti ailə üzvlərini itirmiş, özlərinin doğma yurdlarında yaşamaqla bağlı fundamental hüquqlardan məhrum edilmiş insanların taleyini, Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri unuda bilməz. İşğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası bizim ən pis gözləntimizdən də böyükdür. Amma Azərbaycan dövləti heç kimdən yardım almadan öz torpaqlarında tikinti-quruculuq, yenidənqurma işlərinə başlayıb. Qarabağın bərpası üçün inkişaf proqramı qəbul edilib ki, hazırda bu, başlanğıc mərhələsindədir.

Konfransda çıxış edən ATƏT-in Minsk qrupunun sabiq həmsədri, beynəlxalq ekspert Metyu Brayzə isə dedi ki, Azərbaycan bu savaşda innovasiya, texnologiya və taktika ilə yanaşı, misilsiz cəsarət nəticəsində həlledici Qələbə qazanıb. Bəziləri bəlkə də bunu dərk etmir, ancaq Azərbaycan təmkinli şəkildə müharibə aparıb. Qarşı tərəfin mülki infrastrukturuna zərər və mülki vətəndaşlar arasında itki minimal səviyyədə olub. Ermənistan münaqişənin dinc yolla həllini qəbul etmədi və nəticədə müharibədə məğlub oldu.

Konfransda Prezidentə ünvanlanan bütün suallara təmkinlə və ətraflı cavab verən İlham Əliyev Ermənistana xəbərdarlıqlarını da çatdırdı. Prezidentin bu görüşü beynəlxalq hüquqa, sülhə, təhlükəsizliyə və Cənubi Qafqazda regional sabitliyə münasibətdə Azərbaycan rəhbərliyinin baxışını və ədalətli, dəyişməz siyasətini növbəti dəfə nümayiş etdirdi.

## VIII Qlobal Bakı Forumu - "COVID-19-dan sonrakı dünya"

Noyabrın əvvəlində isə Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Azərbaycanda "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti VIII Qlobal Bakı Forumu işə başladı.

Qlobal Bakı Forumu günün ən aktual çağırışlarını müzakirə etməyə imkan verən çox mühüm hadisədir. Forum Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüslərindən biri kimi keçirilir. Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Prezidentin 23 dekabr 2011-ci il sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilib.

Prezident İlham Əliyevin dəstəyi ilə fəaliyyətini davam etdirən mərkəz qeyri-hökumət təşkilatı olaraq ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçıları və nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Mərkəz artıq səkkizinci dəfədir ki, Qlobal Bakı Forumunu təşkil edir. Forum qlobal gündəlikdə duran məsələlərin müzakirəsi məqsədilə kifayət qədər qısa müddət ərzində dünya platformalarından birinə çevrilib. 2013-cü ildən bu günədək sayca 8 qlobal forum və 42 yüksəksəviyyəli toplantı keçirilib.

Ötən il - "Nizami Gəncəvi ili"ndə İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də keçirilən "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu 3 gün davam etdi.

Xatırladaq ki, 2020-ci ildə keçirilməsi nəzərdə tutulan VIII Qlobal Bakı Forumu COVID-19 pandemiyası ilə əlaqədar təxirə salınmışdı. Forumun gündəliyi çox geniş idi.

Prezident İlham Əliyev forumda çıxışı zamanı Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın 30-dan artıq ölkəyə maliyyə və humanitar yardım göstərdiyini, təmənnasız olaraq bir neçə ölkəni peyvənd dozaları ilə təmin etdiyini xüsusi vurğuladı. Eyni zamanda dövlətimizin yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü şəkildə 10 milyon dollar həcmində maliyyə töhfəsi etdiyi vurğulandı. Çıxışında Vətən müharibəsinə də toxunan dövlətimizin başçısı bildirdi ki, artıq müharibə bitib və bundan sonra gələcəyə baxılmalı, regionun təhlükəsiz, proqnozlaşdırılan və genişmiqyaslı əməkdaşlığa hazır olması təmin edilməlidir. Bunun üçün hər şey Ermənistandan asılı olacaq, çünki Azərbaycanın mövqeyi tam aydındır: "Biz sülh danışıqlarına başlamağa, sülh razılaşması üzərində çalışmağa, səhifəni çevirməyə və sərhədin delimitasiyasına hazırıq".

Sayca 8-ci olan və noyabrın 6-dək davam edən Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksəksəviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak etmişdilər. Hibrid formatda təşkil edilən tədbirə 300-ə yaxın qonaq canlı, onlayn qaydada qoşulmuşdu.

Ötən il noyabrın 7-də isə Bakı Forumunun iştirakçılarının Şuşaya səfəri təşkil olundu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qala şəhərimizdə qonaqlarla birgə maraqlı görüş keçirdilər. Zəfər günü münasibətilə İlham Əliyevi təbrik edən qonaqlar qısa vaxtda burada belə genişmiqyaslı işlərin görülməsinin böyük təəssürat yaratdığını vurğuladılar. Bu işlərin Azərbaycan Prezidentinin qətiyyətli və səriştəli rəhbərliyi, cəsarətli mövqeyi sayəsində reallaşdığını bildirdilər, böyük nailiyyət münasibətilə dövlət başçısını bir daha təbrik etdilər.

İlham Əliyev işğaldan azad edilən ərazilərdə, həmçinin Şuşada bir ildən az vaxt ərzində sosial və infrastruktur obyektlərinin tikildiyini, yenidən qurulduğunu və bu işlərin hazırda da davam etdirildiyini dedi. Dövlət başçısı bildirdi ki, əsas hədəf işğaldan azad olunan ərazilərdə keçmiş məcburi köçkünlər üçün yüksək yaşayış şəraitinin yaradılmasıdır. Prezident bərpa və yenidənqurma işlərinin tarixi və dini abidələri də əhatə etdiyini diqqətə çatdırdı. Qonaqlar ermənilərin dağıtdıqları tarixi abidələri və törətdikləri vandalizm aktlarını öz gözləri ilə görüb dəhşətə gəldiklərini bildirdilər.

İlham Əliyev mürəkkəb relyefə malik olan Şuşa şəhərinin Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı və şücaəti hesabına azad olunduğunu dedi, Vətən müharibəsindəki Qələbədən sonra Cıdır düzündə bir çox tədbirlərin təşkil olunduğunu, musiqi festivallarının keçirildiyini qeyd etdi.

Ümumiyyətlə, Qlobal Bakı Forumunun əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən fəaliyyətlərə töhfə verməkdir. Qlobal Bakı Forumu Azərbaycan üçün çox böyük əhəmiyyətə malikdir. Bakının belə forumlara evsahibliyi etməsi Azərbaycanın həm mədəni, həm iqtisadi, həm də siyasi baxımdan dünyada tanınmasına gətirib çıxarır. Həmçinin bu cür qlobal əhəmiyyətli tədbirlər Azərbaycanın beynəlxalq münasibətlərdə oynadığı rola dinamika gətirir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə həyata keçirilən tədbirlərə dünyanın görkəmli siyasətçiləri dəvət edilir. Bütün bunlar Azərbaycanın beynəlxalq əməkdaşlıqda rolunu xeyli dərəcədə gücləndirir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ənənəvi olaraq Bakıda təşkil olunan Qlobal Bakı Forumuna və dünyanın üzləşdiyi problemlərin müzakirə olunduğu müxtəlif görüşlərə evsahibliyi edərək ən yüksəksəviyyəli əməkdaşlıq platformasına çevrilib.

## İlham Əliyevin qlobal təşəbbüsləri hər zaman təqdir edilir

Adından da göründüyü kimi, forumun əsas müzakirə mövzusu qlobal gündəlikdə duran bir nömrəli məsələ - pandemiya ilə mübarizəyə həsr olunmuşdu. Bundan əvvəl də Azərbaycan qlobal müstəvidə pandemiya ilə əlaqədar görüşlərin təşəbbüskarı olmuşdu.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Dövlətləri Təşkilatı) və Qoşulmama Hərəkatının hazırkı Sədri olaraq ötən il Azərbaycanın təşəbbüsü ilə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirildi. Qoşulmama Hərəkatının Sammitində Azərbaycan Prezidenti BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdi və bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəkləndi. Bu xüsusi sessiya keçən ilin 3-4 dekabr tarixlərində baş tutdu.

Xüsusi olaraq vurğulanmalıdır ki, bütün toplantılarda, forumlarda Azərbaycan Prezidentinin COVID-19-la mübarizədə irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq birlik tərəfindən təqdir edilib və nümunə kimi göstərilib.

Dövlətimizin başçısının müvafiq sərəncamı ilə 2021-ci ilin dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi şərəfinə "Nizami Gəncəvi ili" elan edilməsi Azərbaycanın mədəniyyət və ədəbiyyatının bayramı oldu. Bu əlamətdar il çərçivəsində respublikamızda və ölkənin xaricində, müxtəlif beynəlxalq təşkilatlarda tədbirlər, təqdimatlar keçirildi.

Bir sözlə, dünyanın pandemiya tərəfindən hədəfə alındığı çətin günlərdə ölkəmiz və onun başçısı İlham Əliyev sözün həqiqi mənasında bütün dövlətlər və onların liderləri üçün bir nümunə oldu. Azərbaycan dövləti özünün mövcudluq tarixində heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmamışdır.

Bütün bunlar bir daha təsdiq edir ki, bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin inkişafına, transmilli layihələrin reallaşdırılmasına və qlobal təhlükəsizlik məsələlərinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Narkomanlığa qarşı mübarizə qanunvericiliklə tənzimlənir

Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunundan və digər qanunvericilik aktlarından ibarətdir.

Ümummilli Lider Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 26 avqust 1996-cı il tarixli fərmanı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yaradılması ölkəmizdə narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi kimi ön plana çəkmişdir. Adıçəkilən fərmanın qəbul edilməsi narkomanlığın və onunla bağlı cinayətkarlığın cəmiyyətin inkişafına mənfi təsir göstərməsi bu təhlükəli təzahürə qarşı əsaslı sosial-hüquqi tədbirlərin həyata keçirilməsi zərurətini yaratması ilə bağlı olmuşdur.

"Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli Qanunu narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə bağlı hüquq pozuntularının təhlükəliliyini göstərərək onların qanunsuz dövriyyəsinin bununla bağlı cinayətkar fəaliyyətin qarşısının alınmasının, həmin əməlləri törədən şəxslərin aşkar edilməsinin və cəzalandırılmasının hüquqi əsaslarını və dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir.

Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi Azərbaycan Respublikasında qanunla qadağan olunmaqla həmin əməllərə yol vermiş şəxslərin cinayət və inzibati məsuliyyətləri müvafiq olaraq Cinayət və İnzibati Xətalar Məcəllələri ilə tənzimlənir.

Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 26-cı fəsli "narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi" adlanır. Həmin fəsil Cinayət Məcəlləsinin 234-240-cı maddələrini əhatə edir. Cinayət Məcəlləsinin 234-cü maddəsi qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, 235-ci maddəsi narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə, 236-cı maddəsi narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə, 237-ci maddəsi qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, 238-ci maddəsi narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama, 239-cu maddəsi narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma, 240-cı maddəsi güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi adlanır. Hər bir maddə özündə ağırlaşdırıcı hal hesab olunan tövsifedici əlamətləri daşıyır.

Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin, psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıların təsdiq edilməsi haqqında" 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları təsdiq edilmişdir. Həmin siyahılar 3 qrupa bölünməklə cədvəllər şəklində tərtib edilmişdir. Birinci siyahı "narkotik vasitələr", ikinci siyahı "psixotrop maddələr", üçüncü siyahı isə "qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilər" adlanır. Birinci siyahıda dövriyyəsi qanunla qadağan edilmiş 187 adda narkotik vasitələrin (dərman preparatlarının beynəlxalq) adı, şəxsi istehlak miqdarından artıq miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri, eləcə də külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla aşağı hədləri göstərilmişdir. İkinci siyahıda dövriyyəsi qanunla qadağan edilmiş 176 adda psixotrop maddələrin (dərman preparatlarının beynəlxalq) adı, şəxsi istehlak miqdarından artıq miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri, eləcə də külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla aşağı hədləri göstərilmişdir. Üçüncü siyahıda qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin adları, onların xeyli və külli miqdarı göstərilmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 26-cı fəslində sadalanan cinayət əməllərinin bir neçəsi üzrə təcrübədə tətbiqi ilə bağlı yaranmış qeyri-müəyyənliklərin aradan qaldırılması üçün maraqlı subyektlər tərəfindən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciətlər edilmiş və müvafiq qərarlar qəbul olunmuşdur.

Belə ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Respublika Prokurorluğunun müraciəti əsasında Cinayət Məcəlləsinin 237-ci maddəsində və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Qanunun 1.0.6-cı maddəsində nəzərdə tutulan "kultivasiya" anlayışının tərkibində narkotik maddələr olan yabanı bitkilərin toplanmasını ehtiva edib, etməməsinin, tərkibində narkotik maddələr olan bitkilərin hissələrinin hansı miqdarda toplanmasının Cinayət Məcəlləsinin 237.1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olmasının, tərkibində narkotik maddələr olan bitkilərin hissələrinin toplanmasının hansı meyar əsasında Cinayət Məcəlləsinin 237.2.3-cü maddəsi üzrə külli miqdarda törədilmə hesab edilməsinin şərh olunmasına dair 25 fevral 2013-cü il tarixli qərar qəbul etmişdir.

Bundan başqa, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında Cinayət Məcəlləsinin 234-cü maddəsinin həmin məcəllənin 237-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair 6 iyul 2021-ci il tarixli qərar qəbul etmişdir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə qanunvericiliyin məhkəmələr tərəfindən düzgün və eyni cür tətbiq olunmasını, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 4 mart 2011-ci il tarixli 2 nömrəli qərarında qeyd edilən məsələlərlə bağlı geniş tövsiyələr öz əksini tapmışdır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 22-ci fəsli "narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalar" adlanır. Həmin fəsil İnzibati Xətalar Məcəlləsinin 206-209-cu maddələrini əhatə edir. İnzibati Xətalar Məcəlləsinin 206-cı maddəsi qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakı, satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi, 206-1-ci maddəsi narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədilə prekursorların hazırlanması, əldə edilməsi, saxlanılması, göndərilməsi və ya daşınması, 207-ci maddəsi narkotik vasitələrin, psixotrop maddələrin istehlakı və ya daşınması hallarının, həmçinin belə istehlak nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi məqsədilə keçirilən tibbi müayinədən boyun qaçırmaq, 208-ci maddəsi qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin az miqdarda kultivasiyası, 209-cu maddəsi isə tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi üzrə tədbirlər görülməməsi adlanır.

Müasir dövrün tələblərinə uyğun olaraq cəmiyyətdə baş verən dəyişikliklər nəzərə alınmaqla ümumbəşəri bəla olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə çərçivəsində qüvvədə olan qanunvericilik aktlarına əlavə və dəyişikliklərin ediləcəyi, həmçinin yeni qanunvericilik aktlarının qəbul olunacağı istisna edilmir.

***Elnur RÜSTƏMOV,***
***Füzuli rayon prokuroru,***
***kiçik ədliyyə müşaviri***

# Ermənistanda xaosun yeni mərhələsi başladı

## Prezident Armen Sarkisyanın istefası ölkədəki siyasi gərginliyi daha yüksək həddə çatdırıb

Ermənistanda ictimai-siyasi müstəvidə vəziyyətin getdikcə pisləşməsi müşahidə olunmaqdadır. Belə görünür ki, daxili və xarici siyasətdə qeydə alınan uğursuzluqlar qarşıdakı günlər ərzində hakimiyyət üçün yeni problemlər yaradacaq.

Bunun fonunda Ermənistan prezidenti Armen Sarkisyanın vəzifəsindən istefa verməsi ölkədə siyasi gərginliyi daha yüksək həddə çatdırıb. Onun bəyanatında deyilir ki, daxili və xarici siyasətin mühüm məsələlərinə təsir göstərmək üçün prezidentin əlində heç bir alət yoxdur. Sarkisyanın sözlərinə görə, Ermənistan forma etibarilə parlament respublikası olsa da, məzmunca belə deyil.

Armen Sarkisyan 2018-ci ildə Ermənistan prezidenti seçilib. Onun bu posta namizədliyi həmin dövrdə ölkənin rəhbəri olan Serj Sarkisyan tərəfindən irəli sürülmüşdü. Ermənistan konstitusiyasının 142-ci maddəsinə əsasən, ölkənin prezidenti istefa verdikdə bu barədə ərizəni parlamentə təqdim edir. İstefa qanunla müəyyən edilmiş qaydaya əsasən dərc edildiyi andan qəbul olunur. Konstitusiyanın 144-cü maddəsinə görə, yeni prezident seçilənə qədər Ermənistanın dövlət başçısının səlahiyyətlərini parlamentin spikeri icra edir. Hazırda Ermənistan parlamentinin spikeri postunu Paşinyanın partiyasından olan Alen Simonyan tutur. Yeni konstitusiyaya görə, Ermənistan prezidenti postu boş qaldıqda növbədənkənar seçkilər keçirilir. Seçkilər istefanın rəsmi təsdiq olunmasından 25 gündən sonra və 35 gündən gec olmayaraq keçirilməlidir.

Xatırladaq ki, Ermənistan prezidenti parlament tərəfindən 7 il müddətinə seçilir. Namizədlər deputatların ümumi sayının ən azı dörddəbiri tərəfindən irəli sürülür. Deputatların ümumi səslərinin azı dörddəüçünü toplayan namizəd Ermənistan prezidenti seçilir. Birinci turda prezident seçilmədikdə, bu turda iştirak etmiş bütün namizədlər ikinci tura keçir. İkinci turda deputatların ümumi səslərinin azı beşdəüçünü (65 deputat) toplayan namizəd prezident seçilir. Bu turda da prezident seçilmirsə, ən çox səs toplamış iki namizəd üçüncü turda yarışır və bu raundda səslərin ən çoxunu qazanan şəxs ölkə prezidenti olur. Eyni şəxs bu vəzifəyə yalnız bir dəfə seçilmək hüququna malikdir. Ermənistanda dövlət başçısı başqa vəzifə tuta, sahibkarlıq fəaliyyəti, maaşlı işlə məşğul ola və səlahiyyət müddəti ərzində heç bir partiyanın üzvü ola bilməz.

Göründüyü kimi, 2022-ci ildə də Ermənistanda müsbətə doğru hər hansı bir dəyişikliyin olmayacağını, mövcud ictimai-siyasi və sosial-iqtisadi durumun isə bu ölkədə əhalinin yaşayış səviyyəsini daha böyük sürətlə aşağı salacağını göstərir. Hadisələrin inkişaf istiqaməti bu nəticəyə gəlməyə əsas verir ki, bütün regional layihələrdən kənarda qalan Ermənistan hazırda sosial partlayış ərəfəsindədir. İlk növbədə, ona görə ki, əhalinin maddi gəlirləri aşağı düşdüyü bir vaxtda inflyasiyanın səviyyəsi artır, kommunal xidmətlərə görə insanlardan daha böyük həcmdə vəsait tələb olunur. Bu fonda Ermənistanda əhalinin sosial durumu dözülməz həddə çatıb. Maraqlıdır ki, müharibədə məğlubiyyətdən sonra xalqa verdiyi vədlərə sadiq qalmayan Nikol Paşinyanı bunların heç biri maraqlandırmır.

Bütün bunların fonunda fürsət düşən kimi Ermənistanı tərk etmək istəyənlərin sayı da hər ay artmaqdadır. Son rəsmi statistikaya görə, Ermənistanda 2,9 milyon insan qalıb. Real rəqəm isə bundan çox aşağıdır. Dünya Bankının məlumatına görə, hazırda keçmiş SSRİ-nin bütün respublikaları arasında Ermənistan işsizlik səviyyəsinə görə 20,21 faizlə birinci yerdədir.

Bu arada iqtisadiyyat naziri Vahan Kerobyan 2022-ci ildə Ermənistanın ikirəqəmli iqtisadi artıma sahib olacağını deyib. Ölkənin iri müəssisələri xarici şirkətlərin üzünmüddətli icarəsinə verilib və burada da işlər qaydasında deyil. İstehsal olunmuş məhsulların satış bazarı olmadığına görə şirkətlər sürətlə müflisləşir, mütəxəssislər xarici ölkələrə köçmək məcburiyyətində qalırlar.

Yeri gəlmişkən, ölkədə işsizliyin səviyyəsi miqrasiyanın artması ilə paralel gedir. Ermənistanın hər dördüncü sakini ölkəni birdəfəlik tərk edir. İnsanlar milli rüsvayçılıq, müharibədəki məğlubiyyət səbəbindən pessimizmdən qurtula bilmirlər. Bu düşüncə ilə də iqtisadiyyatdan inkişaf gözləmək mümkün deyil. Maraqlısı ondan ibarətdir ki, miqrasiyaya baxmayaraq, ölkədə hələ də hamı üçün kifayət qədər iş yeri yoxdur. Baş nazir Paşinyan isə 3 milyona yaxın əhalisi olan ölkəsində 1,5 milyon yeni iş yerinin açılacağını vəd edir. Eyni zamanda ölkəsinin 2050-ci ilə qədər nəinki Cənubi Qafqazın, o cümlədən postsovet məkanının ən inkişaf etmiş ölkəsi olacağı barədə yalanlar uydurur. Çünki ağır durumda olan Ermənistanı 2020-ci ilin iqtisadi durumuna çatdırmaq üçün ən azından 30 il vaxt lazımdır. Həm də güclü iqtisadi investisiyalar yatırmaq, meqalayihələr həyata keçirmək lazım gəlir. Amma heç bir perspektivi olmayan bir ölkəyə milyardlarla dollar maliyyə yatırmağı kimsə qəbul edə bilməz.

Bu fonda "4rd.am" saytı yazır ki, Paşinyanın Ermənistanın 2050-ci ilə qədərki "İnkişaf strategiyası" mövzusuna qayıtması erməni xalqının istəkləri üzərində standart spekulyasiyasıdır: "Ölkədə vəziyyət hər gün pisləşir, insanlar Ermənistandan sanki batan gəmidən siçovulun qaçdığı kimi qaçır, yerdə qalan kütlə isə kəskin narazılıq nümayiş etdirir. Hakimiyyətin mövqeyi getdikcə daha zəifləyir və buna görə də onu qorumaq üçün Paşinyan növbəti dəfə populizmə əl atır. Özü də hər şeyi mükəmməl başa düşür, amma gücün dadını hiss edərək artıq onu vermək istəmir. Ermənistanın bütün rəhbərlərinin bəlası bu idi. Özləri də sözlərinə, vədlərinə inanmırlar, amma insanları inandırmağa çalışırlar".

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı kifayət qədər çətin günlər gözlədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Qarabağda biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya 945 müraciət daxil olub

44 günlük Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə biznesin qurulmasına maraq göstərən yerli və xarici sahibkarlıq subyektlərinin müraciətlərinin qəbuluna başlanılıb və proses hazırda da davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya indiyədək 945 müraciət daxil olub. AZƏRTAC xəbər verir ki, bu barədə agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov yanvarın 24-də ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

"Bunlardan 446 müraciət investisiya layihələri, 499-u isə digər iş və xidmətlərin (əsasən podrat əsaslı) həyata keçirilməsi ilə bağlıdır. Müraciətlərin 27 faizi tikinti, 27 faizi ticarət və xidmət, 21 faizi sənaye, 18 faizi kənd təsərrüfatı və digər 7 faizi turizm, səhiyyə, təhsil, mədəniyyət, nəqliyyat və logistika sahələrini əhatə edir", - deyə O.Məmmədov diqqətə çatdırıb.

O qeyd edib ki, işğaldan azad olunmuş ərazilərin bərpası və iqtisadi dəyər zəncirinə re-inteqrasiyası istiqamətində həyata keçirilən tikinti-quruculuq işlərində dövlət özəl sektor tərəfdaşlığı (DÖST) modelinin geniş tətbiq edilməsi hədəflənir.

## Dövlət Statistika Komitəsinin bir qrup əməkdaşı Vilnüsdə təşkil olunan təlimdə iştirak edib

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (DSK) bir qrup əməkdaşı Avropa İttifaqının "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" tvinninq layihəsi çərçivəsində Litva Statistika Departamentində olub.

Səfərin məqsədi biznes statistikası məlumatlarının istehsalı, GSBPM üzrə müəssisələr statistikasının aparılması, Biznes reyestrin keyfiyyəti və seçmə şəbəkəsinin formalaşdırılması üzrə Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarının potensialının artırılmasından ibarətdir.

Litva Statistika Departamentinin mütəxəssisləri tərəfindən Litva statistikasında biznes statistikası məlumatlarının istehsalı, proseslər xəritəsinin əsas alt prosesləri, qısamüddətli biznes statistikası üçün GSBPM üzrə həyata keçirilən istehsal prosesi, sənaye, ticarət, ictimai iaşə, tikinti sahəsində fəaliyyət göstərən müəssisələrin statistik müayinəsinə dair Litva təcrübəsi və s. mövzulara dair təqdimatlar edilib. Təlim iştirakçıları litvalı mütəxəssislərlə qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparıb.

Səfərdə Dövlət Statistika Komitəsinin nümayəndələri ilə yanaşı, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşları da iştirak ediblər.

## Milli Observatoriyanın təhlil və tədqiqat sahələri genişlənib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın təhlil və tədqiqat sahələri ötən il xeyli genişlənib.

Observatoriyanın fəaliyyətinə və gələcək hədəflərinə həsr olunan iclasda analitik və intellektual mərkəzi kimi fəaliyyət göstərən qurumun təhlil və tədqiqat, proqnozlaşdırma istiqamətində gördüyü işlər müzakirə edilib. Praktiki iş sektorları ilə sıx əməkdaşlıqda funksional sahələr üzrə təhlillərin aparılmasının, kadr potensialının inkişafına yönələn təlim-tədris işlərinin gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Observatoriyanın əmək bazarı, sosial müdafiə və demoqrafiya sahələri üzrə həyata keçirilən tədbirlərin və sosial proqramların cari və perspektiv vəziyyətinin qiymətləndirilməsi, strateji məşğulluq sahələrinin və gələcək inkişaf meyillərinin müəyyən edilməsi istiqamətində gördüyü işlər müzakirə olunub. Aparılmış təhlillər və tədqiqatlardan, müvafiq sahənin inkişafı məqsədilə qabaqcıl təcrübələrin öyrənilməsi və təkliflərin təqdim olunması üzrə əldə olunan nəticələrdən bəhs edilib.

Müasir innovasiyalara və rəqəmsal texnologiyaların tətbiqinə əsaslanan müxtəlif sosial layihələrin işlənib hazırlanması sahəsində Milli Observatoriyanın fəaliyyəti qeyd edilib.

Observatoriya tərəfindən bu il bir sıra yeni istiqamətlər üzrə təhlil və tədqiqatlara başlanacağı vurğulanıb.









## Buna da qadirik

### Ərazilərimizi işğaldan necə azad etmişiksə, o sürətlə də dirçəldirik

Müharibə və dağıntı sözü həmişə qoşa səslənir və bu təsadüfi deyil. Ona görə ki, müharibələrin özündən sonra qoyduğu ən böyük iz və ağrı insan tələfatından sonra məhz dağıntıdır. Biriləri tərəfindən illərlə tikilib qurulan digərləri tərəfindən müasir silahlar vasitəsilə bir andaca məhv edilir.

Ancaq Ermənistan bundan da qabağa getmişdi. Çünki bu miqyasda dağıntılar təkcə döyüşlərin nəticəsi deyildi. Yəni bu dağıntılar döyüşlər zamanı atılan bomba və mərmilərin nəticəsi yox, döyüşlərdən sonra məqsədli şəkildə həyata keçirilən vandalizm aktı idi. Birinci Qarabağ savaşı zamanı kütləvi şəkildə irihəcmli dağıdıcı silahlardan çox istifadə olunmadığı üçün müharibədən sonra dağıntı və söküntü işlərinin aparıldığı aydın görünürdü. Daha doğrusu, işğalçıların 30 il işğalda saxladıqları ərazidə tikinti üçün yararlı nə var idisə, hamısını söküb ya öz xarabalarına aparmış, ya da özləri kimilərinə satmışlar.

Bununla onlar iki məkrli məqsədlərinə nail olmaq istəyirdilər. Birinci məqsədləri xalqımıza məxsus maddi və mədəni sərvətlərin izini silməklə buraların yalnız ermənilərə məxsus olduğunu dünyaya car çəkmək idi. İkinci məqsədləri isə nə vaxtsa bu torpaqlar azad edilərdə (ermənilər daim bu qorxu ilə yaşayıblar) geri qayıtmağımızı mümkünsüz etmək olmuşdur. Ancaq 44 günlük Vətən müharibəsi və ondan sonrakı bir il bütün dünyaya göstərdi ki, Azərbaycan xalqı bu xarabazarlığa döndərilmiş torpaq üçün hər cür fədakarlığa hazır və onu qısa müddətdə dirçəltməyə qadirdir. Azərbaycan sübut etdi ki, sürətli müharibə taktikası ilə düşmən üzərində necə qələbə qazandısa, həmin templə də quruculuq-bərpa işlərini həyata keçirir.

Müharibədən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə xarici diplomatlar, ictimai xadimlər və jurnalistlər işğaldan azad olunmuş bölgələrə dəvət edildilər. Dövlət başçısının bu qərarı sayəsində dünya Qarabağ və Şərqi Zəngəzurda ermənilərin törətdikləri vandalizmin şahidi oldu. Hamı gördü ki, ermənilər heç də özlərini təqdim etdikləri kimi məzlum deyillər. Erməni vəhşiliyinin hədd-hüdudu olmadığı kimi, yalanı da heç bir çərçivəyə sığmır.

Dövlət başçısı yanvarın 12-də yerli telekanallara verdiyi müsahibəsində erməni vandalizminin miqyası və bizə qarşı apardığı çirkin təbliğat haqqında demişdir: "Bu da ermənilərin bütün konsepsiyasını tamamilə alt-üst edirdi ki, guya onlar sivil xalqdır, qədim xalqdır, barbar müsəlmanların əhatəsində qalıblar, Qafqazda xristianlığın nəticəsi olan nəcib xalqdır. Məgər nəcib xalq belə hərəkət edə bilərmi? Ölüləri qəbirdən çıxarıb onların qızıl dişlərini çıxarmaq, qəbirüstü daşları sındırıb qonşu ölkələrə aparmağa, məscidləri dağıtmaq, orada donuz saxlamaq".

Məlumdur ki, Prezident İlham Əliyev müharibə başa çatdıqdan dərhal sonra işğaldan azad edilən ərazilərdə quruculuq-bərpa işlərinin aparılması barədə tapşırıq vermişdir. Bununla dövlət başçısı bütün dünyaya bir daha göstərmişdir ki, torpaqların əsl sahibi kimdir, hansı xalq qurucu, hansı xalq dağıdıcıdır. İndi ölkəmiz dünyaya müharibə dövründə göstərdiyi şücaəti bərpa-quruculuq müstəvisində göstərir. Təkcə Füzuli Hava Limanının 8 ayda tikilib istifadəyə verilməsi sübut edir ki, bizim bu müstəvidə də rəqibimiz yoxdur. Ən əsası isə odur ki, biz bu sahədə də maliyyə, texnika və ixtisaslı kadrlar sarıdan heç kəsdən asılı deyilik.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda çətin dağlıq, qışda qarın qalınlığı 3-4 metrə çatan ərazilərdə yollar inşa edilir, tunellər qazılır, elektrik xətləri çəkilir. Bu işlər bir an fasilə vermədən böyük fədakarlıqla həyata keçirilir. İndiyədək dağlıq coğrafi məkanda yerləşən Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarının ərazilərində və Ermənistanla həmsərhəd bölgələrdə 700 kilometrə yaxın, o cümlədən "Zəfər yolu" çəkilmişdir. Paralel olaraq Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın yolu, həmçinin Laçın istiqamətində əlavə yollar da salınır.

Bölgədə 7 elektrik yarımstansiyası inşa edilib. "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarında, həmçinin "Qarabağ" Regional İdarəetmə Mərkəzində tikinti işləri başa çatdırılıb. "Güləbird", "Suqovuşan-1" və "Suqovuşan-2" Su-Elektrik stansiyaları istifadəyə verilib, "Kəlbəcər-1" Su-Elektrik Stansiyasında isə bərpa-təmir işləri yekunlaşıb.

İşğaldan azad edilən ərazilərə dəmir yolu xətlərinin çəkilməsi bölgədə iqtisadiyyatın inkişafında mühüm rol oynayacaq. Hazırda Bərdə-Ağdam dəmir yolunun tikintisi gedir, Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin bir hissəsi olan dəmir yolunun inşası aparılır. Laçın və Kəlbəcər dəmir yolunun çəkilməsi istiqamətində isə araşdırma və layihələndirmə işləri görülür.

Əsas məqsəd bu torpaqları məcburən tərk etmiş insanları doğma yurdlarına qaytarmaqdır. Prezident İlham Əliyev bu barədə demişdir: "Yenə də deyirəm, infrastruktur layihələri ilə bərabər, məsələn, Şuşada artıq yaşayış komplekslərinin inşasına start verilib, təməli qoyulub, artıq praktik inşaata başlayacağıq. Ağdamda, digər yerlərdə, kəndlərdə məktəb, xəstəxana. İndi Ağalı kəndinin istifadəyə verilməsi nəzərdə tutulur. Yəni genişmiqyaslı işdir, çox böyük işdir - həm texniki nöqteyi-nəzərdən, maliyyə tutumu baxımından və məsuliyyət baxımından. Çünki bu, çox məsuliyyətli işdir, biz burada səhv buraxmamalıyıq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Türkiyədə müalicədə olan hərbçilərimizin əyani müayinə əsasında əlilliyi qiymətləndirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən "YAŞAT" Fondunun dəstəyi ilə Türkiyədə müalicə olunan 25 hərbçimizin əlilliyi qiymətləndirilib.

Bu məqsədlə agentliyin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin əməkdaşlarından ibarət olmaqla komissiya yaradılıb. Komissiyanın üzvləri İstanbul, İzmit və Bursa şəhərlərində olub.

Ölkə xaricində tibb müəssisələri, yaralı hərbçilər və komissiya üzvləri arasında koordinasiyanın təmin edilməsi məqsədi ilə "YAŞAT" Fondunun əməkdaşları da onlarla birgə ezam olunub.

Qeyd olunan şəhərlərdəki tibb müəssisələrində müalicədə olan hərbçilərimizin hər biri ilə görüşülüb və əyani müayinələri aparılıb, əlillik vəziyyətləri qiymətləndirilib. Müayinələrin nəticələrinə əsasən onlara əlillik dərəcələrinin təyin edilməsi nəzərdə tutulub.

Bunun üçün aidiyyəti qurumların hərbi həkim komissiyalarına hərbçilərimizlə bağlı müvafiq şəhadətnamələri təqdim etmələri üçün müraciət olunub.

Yaxın günlərdə şəhadətnamələr təqdim edildikdən sonra e-sistem üzərindən Türkiyədə müalicə olunan hərbçilərimizə də əlillik dərəcələri və bununla bağlı sosial ödənişlərin təyinatları aparılacaq.

## Verilən kreditlərin 81 faizi uzunmüddətlidir



Azərbaycan Mərkəzi Bankının məlumatına görə, ötən il dekabrın 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 16 milyard 700,6 milyon manat olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, ümumi kredit portfelinin 13 milyard 523,2 milyon manatı və ya 81 faizi uzunmüddətli kreditlərin payına düşüb. Kreditlərin 97,5 faizi banklar, 2,5 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği 786,3 milyon manat olub və ümumi kredit portfelinin 4,7 faizini təşkil edib.

## MEDİA və DGK cənub bölgəsində jurnalistlər üçün təlim keçir

Dövlət Gömrük Komitəsinin (DGK) və Medianın İnkişaf Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə jurnalistlər üçün "Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər" mövzusunda təlim keçirilir. Tədbirdə 40-a yaxın media qurumunun nümayəndəsi iştirak edir.

DGK-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Natiq Axundov bildirib ki, təlimin məqsədi Prezident İlham Əliyevin gömrük sistemində həyata keçirdiyi islahatlar çərçivəsində tətbiq edilən yeniliklər, reallaşdırılan layihələr, baş tutan dəyişikliklərlə bağlı jurnalistlərin məlumatlandırılmasıdır.

MEDİA İnkişaf Agentliyinin əməkdaşı Pərvanə İbrahimova qeyd edib ki, ölkənin müxtəlif orqanlarında həyata keçirilən islahatlar barədə məlumatların cəmiyyətə düzgün çatdırılmasını, müxtəlif hədəf qruplarının bu sahədə baş verən dəyişikliklərin məzmun və mahiyyətindən zamanında xəbərdar olmasını, bu xüsusda dövlət qurumlarının media subyektləri ilə peşəkar əməkdaşlığının gücləndirilməsini təmsil etdiyi qurum daima diqqət mərkəzində saxlayır: "Biz jurnalistlərin sahəvi biliklərinin artırılması məsələlərinə xüsusi önəm veririk və bu təlimin faydalı olacağına əminik".

Təlim çərçivəsində gömrük mütəxəssisləri bu sahədə risklərin idarə edilməsi, informasiya texnologiyalarının tətbiqi, hüquqpozmalarla mübarizə, fiskal fəaliyyət, "Yaşıl Dəhliz" buraxılış sistemi, avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi prosesindəki dəyişikliklərə dair, media mütəxəssisləri isə "Media islahatları: əsas hədəflər" mövzusunda təqdimatlar keçiblər.

Təlim çərçivəsində jurnalistlər Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postuna səfər ediblər. Səfər zamanı jurnalistlər gömrük sistemində tətbiq edilən yeniliklərlə əyani şəkildə tanış olublar.

Təlim bu gün başa çatacaq.

***"Azərbaycan"***

# 2021-ci ildə Azərbaycanda 34,6 milyon ton neft hasil olunub

## Bu, ondan əvvəlki ilə nisbətən çoxdur



*Əvvəli 1-ci səh.*

SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ötən il üzrə açıqladığı hesabata görə, şirkətin müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlarda 7,9 milyon ton neft, 7,9 milyard kubmetr qaz hasil olunub. Neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,5 faiz, qaz hasilatı isə 7 faiz çoxdur.

Prezident İlham Əliyev ölkənin neft-qaz sənayesi qarşısında köhnə yataqları da yaddan çıxarmamaq, hasilatı sabit saxlamaq üçün müntəzəm tədbirlər görmək vəzifəsini qoyub. Qazanılan nəticələr Azərbaycan neftçilərinin bu vəzifənin öhdəsindən layiqincə gəldiklərini göstərir. Yəni SOCAR dənizdə və quruda onilliklərdir istismar olunan yataqlarda işi uğurla davam etdirir. Hasilatı sabit saxlamaq üçün yeni texnika və texnologiyalardan, bütün mümkün vasitə və tədbirlərdən istifadə olunur. Nəticədə hətta hasilatın artması da müşahidə edilir.

Məsələn, ardıcıl şəkildə aparılan qazma işlərini xatırladaq. Ötən il SOCAR 2020-ci ilin nəticələri ilə müqayisədə 10,3 faiz çox - 62 min metrə yaxın qazma işləri həyata keçirib. Bu da şirkətin istismar etdiyi neft və qaz yataqlarında hasilat səviyyəsinin sabit saxlanılması məqsədilə gerçəkləşdirilən kompleks tədbirlər planının davamlı şəkildə icra olunduğunu bir daha təsdiqləyir.

İl ərzində "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından da hasilat təhlükəsiz şəkildə davam edib. Başqa sözlə, AÇG 27 illik zəngin salnaməsinə yeni nailiyyətlərlə imza atıb. Bunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) verdiyi məlumat da göstərir. Belə ki, ARDNF AÇG neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində 2021-ci ildə 5 milyard 968,4 milyon dollar gəlir əldə edib. Bu da həmin yataqlarda ilboyu hasilatın ahəngdar davam etdiyini göstərir.

Keçən il AÇG həmçinin özünün dünya səviyyəli karbohidrogen mənbəyi olduğunu bir daha nümayiş etdirdi. Belə ki, sentyabrın 18-də, "Əsrin müqaviləsi"nin 27-ci ildönümü və Neftçilər günü ərəfəsində AÇG mühüm bir qələbə qazandı. Bu yataqlar blokundan 4 milyardıncı barel neft hasil olundu.

Qeyd edək ki, AÇG layihəsi çərçivəsində 40 milyard dollar həcmində kapital investisiya qoyulub. Operator olan bp şirkətinin məlumatına görə, AÇG müqavilə sahəsində 136 neft hasilatı quyusu, 30 su və 8 qaz injektor quyusu istismar olunur.

Hazırda AÇG-də 8 platforma fəaliyyət göstərir. "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" hasilat platformalarıdır. Digər iki platforma isə kompressor və suvurma qurğularıdır.

Xatırladaq ki, AÇG-də hasilat 1997-ci il noyabrın 7-də "Çıraq" platformasından başlayıb. Bu tarixi hadisə noyabrın 12-də platformada Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə rəsmi surətdə qeyd olunub. Həmin vaxtdan "Çıraq", onun ardınca da yüksək texnologiyalı digər müasir platformalar AÇG-dən hasilatı təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirirlər.

Yaxın gələcəkdə AÇG-nin doqquzuncu platforması da olacaq. "Azəri Mərkəzi Şərqi" adlanan həmin qurğunun inşası Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda və Bibiheybətdəki tikinti-quraşdırma sahəsində aparılır. Beləliklə, 2001-ci ildən indiyədək 155 milyard 373 milyon dollar gəlir gətirən AÇG Azərbaycanın iqtisadi qüdrətinin daha da artırılması üçün yaxın illərdə fəaliyyətini bir qədər də genişləndirəcək.

AÇG nefti Xəzərdən sualtı xətlərlə Səngəçal terminalına daxil olur və buradan, əsasən, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri ilə dünya bazarlarına yola salınır. Keçən ilin son ayında BTC ilə 500 milyonuncu ton neftin ixrac edilməsi qeyd olundu. Həmin neft "Nordorse" tankeri ilə Triestə (İtaliya) göndərildi. Bu, həmin vaxtadək BTC-nin nəql etdiyi neftin yükləndiyi 4922-ci tanker idi.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

### Bu barədə düşünək

# Bakının boğazında tıxac olmuş tıxac problemi

Bakı təkcə regionda yox, bütün dünyada gözəl şəhər kimi tanınır və mübaliğəsiz deyək ki, həm də sevilir. Paytaxtımız nadir şəhərlərdəndir ki, burada tarixin bütün dövrlərinin memarlıq nümunələri ilə rastlaşmaq mümkündür. Özü də əksər hallarda bu müxtəlif yaşlı nümunələr bir-biri ilə o qədər "qaynayıb-qarışıb" ki, onları ayrılıqda hətta təsəvvür etmək belə çətindir.

Sözsüz ki, Bakını bu səviyyəyə qaldıran, onu dünyanın gözəl şəhərləri sırasına qoşan Prezident İlham Əliyevdir. Səmimiyyətimizə inanın, məhz İlham Əliyevin sayəsində paytaxtımızı bu gün Şərqin Parisinə, Qərbin Dubayına bənzədirlər. Ötən əsrin 90-cı illərinin Bakısını xatırlayırsınızmı? Keçmiş SSRİ-dən qalma yarıdağılmış infrastruktur, yaşıllıqları saralmış park və xiyabanlar, illərin çirkini üstündə saxlamış boz binalar, işləməyən sənaye müəssisələri, hər cür müasirlikdən uzaq olduqları üçün bu gün kəndlərimizin belə özlərinə rəva bilmədikləri ticarət və iaşə obyektləri... Saymaqla qurtarılası deyil paytaxtımızın dünənki simasının "atribut"ları. O "atribut"ları ki, ən yaxşılarını indikilərin yanında yalnız açıq səma altında muzey eksponatına bənzətmək mümkündür.

Bu üzdən İlham Əliyevi yeni Bakının müəllifi də adlandırmaq olar. Bəli, məhz İlham Əliyev "Əsrin müqaviləsi"nin ilk dividendlərindən həm də paytaxtımızın abadlaşdırılaraq müasir şəhər statusu qazanması üçün vəsait ayrılmasına qərar vermişdir. Həmin hesaba hansı işlər görülmədi, nələr edilmədi... Sadalayıb vaxtınızı almayacağıq, onsuz da hamısı gözümüzün qarşısında, başımızın üstündə, ayağımızın altındadır. Sadəcə, adət etdiyimizdən fərqinə varmırıq, elə bilirik belə olmalıdır. Yalnız o vaxt ayılırıq ki, başqa ölkələrin paytaxtlarında olanda onları Bakı ilə müqayisə və necə gözəl, abad, fərqli paytaxtda yaşamağımızı sözün həqiqi mənasında dərk edirik.

Amma onu da dərk edirik ki, Bakı, sən demə, həm də... "kiçik" şəhərmiş. Biz bu iddianı irəli sürərkən heç də paytaxtımızın inzibati sərhədlərini və həmin sərhədlər çərçivəsində yaşayan əhalinin sayını nəzərdə tutmuruq. Qərbdə Ələtdən başlayıb şərqdə Zirədə dənizə dirənən Bakını götürsək, onda paytaxtımız inzibati ərazisinə görə bəlkə də dünyanın ən böyük şəhərləri sırasındadır. Amma necə fikirləşirsiniz, Bakının mərkəzindən 80 kilometr kənarda yerləşən Ələt qəsəbəsinin və bu aralıqdakı bir neçə iri sənaye müəssisəsi, pərakəndə halda tikilmiş şəxsi evlər və Xəzəri görünməz edən hasarların şəhərə aidiyyəti və oxşarlığı varmı? Təbii ki, yoxdur! Sadəcə olaraq, ötən əsrin 70-ci illərində - köhnə SSRİ dövründə şəhərlər əhalinin sayına görə kateqoriyaya bölündüyündən həmin vaxt respublikaya rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev Bakını 1-ci kateqoriyaya daxil etmək üçün paytaxta nisbətən yaxın yaşayış məntəqələrini şəhərin inzibati ərazisinə daxil etməyi bacarmış və bu hesaba Bakı keçmiş ittifaqın azsaylı "milyonçu" şəhərləri cərgəsinə qoşulmuşdur. Təkcə bir faktı qeyd edək: əhalisi milyon nəfər olmayan şəhərdə metro tikintisi də mümkün deyildi.

Və soruşa bilərsiniz ki, bütün bunların mətləbə nə dəxli var?

Bu gün Bakının yollarında avtomobil, ictimai nəqliyyatda insan tıxaclarından şikayətçi olmayan yəqin ki, az adam tapılar. Hökumət körpü və yolötürücüləri inşa etsə də, küçə və prospektləri genişləndirsə də, nəqliyyatın intellektual idarəolunması sistemi qursa (?) da, tıxaclar yenə səbrimizi kəsməkdə, vaxtımızı almaqda, planlarımızı pozmaqda davam edir. Səbəbi? İlkini və "ən səmərəli bəhanə" sayıla biləni bütün böyük şəhərlərdə tıxacların olmasıdır.



Foto-müxbirimiz İlham Babayev bu şəkli Bakının çoxdandır üzqarasına çevrilmiş 20 Yanvar dairəsində çəkmişdir. Göründüyü kimi, yol hərəkəti qaydaları kütləvi şəkildə pozulur.



Bu maşın karvanı isə Ziya Bünyadov prospektində kameranın yaddaşına köçürülüb. Saatını və gününü yazmırıq, çünki həftənin 7 günü, sutkanın 24 saatı bu prospektdə hər iki istiqamət üzrə vəziyyət belədir.



Günün bütün saatları Tbilisi prospektində də vəziyyət şəkildə gördüyünüzdən yaxşı olmur.



Taksilər və şəxsi avtomobillər avtobus dayanacaqlarını fotoda gördüyünüz kimi, arxayınlıqla "işğal" ediblər.



Alı Mustafayev küçəsindəki yük yeri açıq bu avtomobillər isə rayonlara sərnişin daşımaqla məşğuldur. Onlar artıq neçə vaxtdır ətrafda yaşayan sakinləri cana yığıblar. Gəl ki, ərazidəki bu vəziyyət başqa heç kimi rahatsız etmir...



...Vəziyyət hətta o yerə çatıb ki, küçədə yer tapmayan sərnişindaşıyan avtomobil sürücüləri piyada səkilərini zəbt edirlər.

## *Səbəbi yazmaqla qurtaran, nəticəsi danışmaqla azalan deyil*

Amma iddiamız var axı, Bakı şəhər kimi kiçikdir. Məsələn, paytaxtın şimal girəcəyi sayılan 20 Yanvar dairəsindən Nizaminin şəhərin mərkəzindəki heykəlinin yanına piyada 45-50 dəqiqəlik məsafədir. Oradan da cənub istiqamətinə start götürülsə, Bakının şəhər kimi qurtardığı Bayılacan olan yol maksimum bir o qədər vaxt alar. Deməli, Bakının şimalından cənubuna piyadalıq yol təxminən heç 2 saatlıq da deyil. Yaxud götürək Bakının mərkəzi hesab edilə bilən, qonağa göstəriləsi küçələrinin sayını. Barmaqla sayılan qədərdir.

Amma gəl ki, təkcə paytaxtın yox, bütün ölkənin əksər mərkəzi icra strukturları, o cümlədən nazirlikləri, komitələri, ASC və QSC-ləri, eləcə də ali və orta ixtisas təhsil müəssisələri, bankların baş ofisləri, hətta tanınmış ticarət, iaşə və digər xidmət obyektləri bu kiçik əraziyə sığınıblar. Dövlət Gömrük Komitəsi üçün yeni inzibati binanın tikildiyi yerə fikir vermisinizmi? Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və komitənin indiki binasının arasına birtəhər pərçimləyirlər. Guya şərqdən qərbə 130-140 kilometr ərazi olan Bakıda yer yoxmuş. Ən azından DGK-nın yeni binası Heydər Əliyev prospektində inşa edilə bilərdi. Çünki həmin prospektdə artıq bir neçə şirkət və nazirlik üçün inzibati bina tikilmişdir və həm məzmun, həm də forma cəhətdən bu qərar təqdirəlayiqdir. Çünki SOCAR, yaxud İqtisadiyyat Nazirliyi kimi qurumların şəhərin mərkəzindən nisbətən uzaqlaşdırılması bu gün hamımızı rahatsız edən avtomobil və insan tıxaclarının qarşısını dolayısı yox, birbaşa alan tədbirdir. Elə isə DGK bundan niyə kənarda qalmalı idi ki? Axı vətəndaşların, xüsusən sahibkarların ən çox üz tutduqları qurumlardan biri də odur. Elmlər Akademiyası, 3 universitet, eləcə də Ədliyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Dövlət Vergi Xidməti, üstəgəl Dövlət Gömrük Komitəsi - kiçik bir ərazi üçün çox deyilmi?

Hərdən dəniz, okean, çay sahilləri boyu yerləşən şəhərlərə baxanda adamın paxıllığı tutur. Elə bizim Bakının Bayraq meydanından Xəzərin sahilinə sığınmış kiçik mərkəzini seyr edəndə də paytaxtımıza valeh olmamaq mümkün deyil. Memarlıq nümunələri sayıla bilən müasir tikililər dənizlə qol-boyun olanda necə ecazkar görünürmüş.

Bu yerdə adamı od götürür ki, niyə Bakı Xəzər sahili boyu genişlənməməli idi? Allah rəhmət eləsin Ulu Öndərə, bunun üçün şərait yaratmışdır. Yaratmışdır ki, gələcəkdə paytaxtımız hündürlüyə yox, eninə böyüsün. Amma bu işə birbaşa cavabdeh olan təşkilatların rəhbərləri nə etdilər?! Xəzərin kilometrlərlə uzanan sahilini hasarlayıb mərkəzdə eni-uzunu metrlə ölçülən ərazilərdə müxtəlif təyinatlı köndələn göydələnlər tikməyə icazə verdilər. İndi hündürlükdən baxanda Bakının mərkəzi kortəbii surətdə qırılmış meşəyə bənzəyir. Yaxşı ki, Dənizkənarı Milli Park, Neftçilər prospekti, Nizami, İstiqlaliyyət və daha bir neçə belə küçə, meydan, park varmış. Yoxsa, nə ilə öyünərdik?!

Elə bilirsiz, Bakının boğazında tıxac olmuş tıxac probleminin həlli təkcə şəhərin inzibati mərkəzinin bir ovuc əraziyə sığınmasıdır? Belə olsaydı, nə dərdimiz olardı ki... Başqaları səhrada yeni şəhər salıb paytaxtı ora köçürürlər. Azərbaycan kimi ambisioz layihələrdən çəkinməyən ölkənin əlində inzibati ərazini bütün şəhərboyu səpələməyə nə var. Amma problem elə həddə gəlib çatıb ki, həlli təkcə bundan asılı deyil axı...

Götürək şəhərdaxili, xüsusən mərkəzi və mərkəzə yaxın ərazilərdə yeni yollar çəkilişini. Əgər şəhər ətrafında Bakının qəsəbə və kəndlərini birləşdirən belə yolların çəkilişi sürətlə aparılırsa, içərilərdə olsa-olsa ən yaxşı halda əsasən təmir işləri görülür. Türk qardaşlarımız demiş, nədəni məlumdur. Bakının tarixi mərkəzi və buna yaxın ərazilərində torpaq o qədər bahadır ki, həmin məbləğin qarşısında tab gətirmək elə də asan deyil. Tərəzinin bir gözündə bahalı "biznes layihələri", digərində ucuz yox, hətta bədava geniş, rahat yol. Əlini əlinə sürtən məmurun onlardan hansını götürəcəyi, daha doğrusu, artıq neçə ildir götürdüyü məlumdur. İnanmırsınızsa, sökülən gecəqonduların, köhnə binaların yerində nəyin - müxtəlif təyinatlı obyektlərin, yoxsa geniş yolların inşa olunduğunu yadınıza salın. Köhnə Sovet küçəsi və Qış parkından savayı bir geniş ərazini xatırlamaq çətindir ki, onlar da dövlət başçısının birbaşa tapşırığı və nəzarəti altında mümkün olmuşdur. Qalan əksər ərazilərdə isə hətta yerləşdiyindən artıq ya yaşayış binaları, ya da biznes və ya ticarət mərkəzləri tikilmişdir və necə deyərlər, "proses bu gün də davam edir". Özü də bu vaxt nə həmin ərazinin infrastruktur imkanları nəzərə alınır, nə də perspektiv inkişafı. Belə halda hansı yol genişləndirilməsindən, avtomobillər üçün park yerlərinin salınmasından söhbət gedə bilər.

Park yerləri demişkən. Bu gün Bakıda hamını cana yığmış tıxacların əmələ gəlmə səbəblərindən birinin də şəhərdə müasir yeraltı və yerüstü park yerlərinin sayının az olması məlum həqiqətdir. Olanların isə qiymətləri DYP-nin və BNA-nın parketməyə görə yazdıqları cərimədən az fərqlənir. Neçə ildir bu tarif məsələsi həll olunmur ki, küçənin kənarlarında 2-3 cərgə dayanmış avtomobillərə sərfəli alternativ park yeri təklif edilsin. Düzdür, biz heç də bütün sürücülərin həmin təklifə vətəndaş mövqeyindən çıxış edərək cavab verəcəyinə əmin deyilik. Amma bu halda ən azından həmin işə cavabdeh qurumların həm dili uzun, həm də yazdıqları cərimələr ədalətli olar.

Söz ki ədalətdən düşdü, yolun hərəkət hissəsini ədalətsizcəsinə "işğal" edən taksi sürücülərindən yazmamaq mümkün deyil. Niyə yazmayasan ki, onlar bəlkə də paytaxtın bugünkü tıxaclarının əsas günahkarlarıdır. Bakının onsuz da dar olan küçələrini daraldan taksi sürücülərinə nə yol polisinin gücü çatır, nə də Bakı Nəqliyyat Agentliyinin cərimələri təsir edir. Şəhərin şimal girəcəyi sayılan 20 Yanvar və 3-cü mikrorayon dairələri, metronun əksər, xüsusən "İnşaatçılar", "Neftçilər", "Xalqlar dostluğu" stansiyalarının və paytaxtın biz bilmədiyimiz, yaxud xatırlamadığımız digər əraziləri şəhərimizin təkcə tıxac mənbəyi yox, həm də üz qarasıdır. Amma nə olsun, gəlin görək onlara qarşı radikal tədbirlər həyata keçirən varmı?! Yoxdur. Bizim də qeyd etdiyimiz həmin ərazilərdə BNA-nın yazdığı cərimələr və DYP-nin arasıra səsləndirdiyi "sirena"lar sanki gözdən pərdə asmaq üçündür, aralandılarmı, "işğalçı" taksilər yenə mövqelərindədir. Vallah, adam bilmir həmin taksi sürücülərinin "qorxmaz"lığını hara yozsun - ehtiyacın hər cür hissi üstələməsinə, yoxsa DYP və BNA ilə razılaşdırılmış "tamaşa"ya.

Amma yox, bu yerdə üçüncü bir ehtimal da var ki, onun da adı insan amilidir, başqa sözlə desək, bizim hər birimizin şəxsi məsuliyyəti. O üzdən bütün günahı yolların az qala yarısını zəbt edən taksi sürücülərinin, vəzifələrinin icrasına şəxsi maraqlarının təminatı çərçivəsindən baxan BNA və DYP-nin bəzi əməkdaşlarının üzərlərinə atmaq ən azından günah olardı. Bəs biz özümüz necə, tıxac probleminin həllində üzərimizə düşəni edirikmi? Təbii ki, aramızda bu suala müsbət cavab verə biləcək az adam olar. Avtomobilə sahib əksəriyyət bəzən fürsət düşəndə, bəzən tələsəndə, bəzən də sadəcə səbirsizlikdən yol hərəkəti qaydalarını pozur və həmin qayda pozuntuları sırasında qadağan edilmiş yerlərdə parketmələrin sayı az olmur.

O başqa məsələdir ki, paytaxtın, xüsusən, mərkəzində çox az küçə tapmaq mümkündür ki, orada "dayanma-durma" qadağan edilməsin. Həmin qadağalar sürücülər üçün əməlli-başlı problem yaratsa da, başqa ölkələrin paytaxt şəhərlərində və meqopolislərində daha ciddi tədbirlər görüldüyünü gözümüzə alıb anlamalıyıq ki, bütün bunlar tıxacların mümkün qədər qarşısını almaq üçündür. Əgər sabah Bakıda da avtomobillərin hansı gündə hərəkət etməsinə qeydiyyat nömrələrinin tək-cütlüyü ilə icazə verilərsə, yaxud "bir avtomobil-bir sərnişin" qadağan olunarsa, eləcə də şəhərin mərkəzində parketmənin bir neçə saatlıq qiyməti ölkə üzrə minimum əməkhaqqı səviyyəsinə qaldırılarsa, təəccüblənməməliyik. Sadəcə, ictimai nəqliyyatdan istifadə etməyə öyrəşməli, hər cəhətdən xeyirli olan piyada yeriməyə üstünlük verməliyik ki, bu cür radikal tədbirləri tətbiq edənlərin qarasına danışmayaq.

Bütün bunlar özümüzdən asılı olanlardır. Yaxşı, bəs özümüzdən asılı olmayanlarla nə edək?! Məsələn, bir də görürsən, işıqforun normal nizamladığı yolkəsişməsində bir DYP əməkdaşı peyda olur və başlayır qaş düzəltdiyi yerdə göz çıxarmağa, yəni yolun birini boşaldıb, digərində tıxac yaratmağa. Bakı da, qeyd etdiyimiz kimi, elə də böyük şəhər deyil ki, bir, yaxud bir neçə küçədəki tıxacı tezliklə aradan qaldırmaq mümkün olsun. Paytaxtımızda bir küçədə, məsələn, həmin DYP əməkdaşının yaratdığı, yaxud sadaladığımız və sadalamadığımız başqa səbəblərdən əmələ gələn tıxac az vaxtda bütün şəhərin nəqliyyat axınını iflic edir. Hətta iki maşının bir-birinə yüngül toxunması belə bəs edir ki, məsələn, Ziya Bünyadov kimi prospekt, Bakı dairəvi yolu kimi magistralda hərəkət dayansın.

Söz düşmüşkən. Yüngül qəza törədən avtomobillərin hadisə yerini sığorta müfəttişləri gələnəcən tərk edib yolu boşaltmamaları da Bakı tıxaclarının yaranma səbəblərindən biridir. Başa düşmürük, indi nə zamandır ki, müfəttiş hadisəni yerində gözü ilə görməlidir. Camaat bir şəhərdə kompüter arxasında oturub başqa qitədə cərrahi əməliyyat edir, bizdə isə şəhərin az qala yarısı tıxaca düşür ki, nə var-nə var, cənab sığorta müfəttişi hadisə yerinə gələcək. Gülməli və ağlamalıdır, Vallah!

Bütün bunlardan sonra oturub-durub tıxacların yaranma səbəbini axtarırıq. Daha fikirləşmirik ki, paytaxtın özü ağırlığında yükünü 2100 kvadratmetrlik Abşeron yarımadasının bir neçə yüz kvadratmetrinə yerləşdirmək istəyəndə, şəhərin boşalan ərazilərini əvvəlkindən daha basırıq edəndə, intellektual idarəetmənin yalnız adı qalanda və daha neçə-neçə qeyd etmədiyimiz hallarda tıxac da olar, üstəlik ondan artığı da. Hələ paytaxtın burnunun ucunda xaotik şəkildə salınan "Sulutəpə" kimi "yataqxana"ların yaratdıqları problemləri yazmırıq. Onun üçün qəzetimizin bir nömrəsinin bütün səhifələri də azlıq edər. Bu üzdən bəlkə də "qatar artıq gedib". Qalır növbəti qatarı gözləmək, o da gəlib çıxsa...

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Bəzi sosial media istifadəçiləri barəsində inzibati icraat başlanıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu qanunvericiliklə qadağan edilmiş məlumatların internet informasiya ehtiyatlarına yerləşdirilməsinin qarşısının alınması və informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirləri davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış yoxlamalarla ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının pozulması, həmçinin dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görülən işlərə kölgə salmaq məqsədi güdən paylaşımların qarşısının alınması üçün bu cür hərəkətlərə yol verən şəxslər Baş Prokurorluğa dəvət olunub, onların barələrində qanunla nəzərdə tutulmuş tədbirlər görülüb.

Sosial media istifadəçiləri Mirzəli Yalçın Yaşar oğlu, Hüseynov İlham Telman oğlu, Abbaslı Nizami Əsədulla oğlu, İsayev Əfqan Ənvər oğlu və Azadov Rasim Əlif oğluna gələcəkdə belə neqativ hallara yol verməmələri ilə bağlı "Prokurorluq haqqında" qanunun 21-ci maddəsində nəzərdə tutulan qaydada xəbərdarlıq edilib.

Əliyev Namiq Səməd oğlu "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunun 13-2.3.9-cu bəndi ilə yayılması qadağan edilən, demokratik təsisatlara qarşı təzyiqlərin göstərilməsi, dövlət orqanlarının fəaliyyətlərinin pozulması, ölkədə idarəetmə səviyyəsinin aşağı düşməsinə dair çağırışlar edən, həmçinin təhqir və ya böhtan xarakteri daşıyan informasiyanı "feysbuk" sosial şəbəkəsində yerləşdirməsinə görə barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci (internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq Binəqədi Rayon Məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə Namiq Əliyev barəsində bir ay müddətinə inzibati həbs tənbehi seçilib.

Namiq Əliyevin "feysbuk" sosial şəbəkəsində ona məxsus "Yeniavaz.az" səhifəsində yuxarıda təsbit olunan informasiyanı götürməməsinə görə hüquqi şəxs "Azərmedia" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1.2-ci (internet informasiya ehtiyatında yerləşdirilmiş yayılması qadağan edilən informasiyanın götürülməsi ilə bağlı "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunu ilə müəyyən edilmiş tədbirlərin görülməməsinə görə) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib.

Baş Prokurorluq internet informasiya ehtiyatlarının istifadəçilərinə müraciət edərək, virtual məkanda qanunvericiliyin tələblərinə dönmədən riayət olunmasını, həmçinin ictimai müzakirələrin qanun çərçivəsində və etik normalarına uyğun aparılmasını tələb edir. Əks halda, qanunla nəzərdə tutulmuş qaydada tədbirlərin görüləcəyi barədə xəbərdarlıq edilir.

# İrandan Azərbaycana narkotik vasitə keçirilməsi cəhdinin qarşısı alınıb

Yanvarın 22-də saat 19:45 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Cəbrayıl rayonunun Şıxalıağalı kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində 2 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən müşahidə olunub.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sərhəd zastavası dərhal "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadının "Dayan!" əmrinə tabe olmayan sərhəd pozucularından biri havanın qaranlıq, ərazinin meşəlik və sıx kolluq olmasından istifadə edərək geri qaçıb. Digər qaçaqmalçı isə hadisə yerində saxlanılıb. Saxlanılan şəxsin İran İslam Respublikasının vətəndaşı 1985-ci il təvəllüdlü Əsədli Əli Xudaverdi olması müəyyənləşdirilib.

Əraziyə baxış zamanı 2 bağlamanın içərisində təxmini çəkisi 29 kiloqram 925 qram olan narkotik vasitə və psixotrop həblər (16,200 kiloqram marixuana, 7444 qram heroin, 3545 qram metamfetamin, 440 qram tiryək və 1680 ədəd metadon-40 həbi) aşkarlanaraq götürülüb. Faktla bağlı əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

DSX dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirlərini davam etdirir.

Təkrar

## “Azərenerji” ASC Kəlbəcər rayonunda “Tərtər-3” KSES-in yenidənqurma işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az**).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: “Kapital Bank” ASC-nin Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, su-elektrik stansiyaların, hidroqovşaqların işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, su-elektrik stansiyaların, hidroqovşaqların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təklifini isə 09 mart 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına - Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



Təkrar

## “Azərenerji” ASC Kəlbəcər rayonunda “Qaraarxac (Qaraxan)” KSES-in yenidənqurma işlərinin satın alınması üzrə *açıq tender elan edir*



Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az**).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: “Kapital Bank” ASC-nin Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

